www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18-21 yanvar 2025-ci il Şənbə № 10 (8620) Qiyməti 60 qəpik

**Xəbər**

**Azərbaycan sərhədində təhlükəli hazırlıq - "İran Ermənistandan vurulacaq..."**

yazısı səh.11-də

**Gündəm**

**"Gürcüstanla Azərbaycan Avropa ilə Asiya arasındakı körpü rolunu uğurla oynayır"**



İlham Əliyev və Kobaxidze mühüm müzakirələr apardılar; iki ölkə arasında dörd sənəd imzalandı

yazısı səh.5-də

**Bakıda "Nürnberq prosesi" başladı - tarixi məhkəmə**

yazısı səh.3-də

**Zəngəzur dəhlizinə əngəl cəhdi - İrəvanı cəsarətləndirən budur...**

yazısı səh.6-da

**Baydendən gethagetdə Ərdoğana jestin səbəbi**

yazısı səh.10-da

**Təyyarə faciəsi ilə bağlı kritik 1 həftə**

yazısı səh.3-də

**Bal adı ilə satılan şərbətlər - keyfiyyət problemi**

yazısı səh.12-də

**İsrail HƏMAS-la anlaşdı, qalib isə Trampdır - Yaxın Şərq savaşı bitdimi**

yazısı səh.13-də

**Azərbaycanda ötən il 38 mlrd. manatlıq neft və qaz istehsal olunub**

yazısı səh.4-də

**"Xoş niyyətli" adam oğurluqları, azyaşlı "gəlinlər" - cəzalar sərtləşdi, nəticə isə...**

yazısı səh.15-də

**Stomatoloji kabinetlərdə diş çəkilməsi qadağan edilib? -rəsmi cavab**

yazısı səh.15-də

# ABŞ "RƏNGLİ İNQİLAB"LARDAN İMTİNA EDİR - QAFQAZI NƏ GÖZLƏYİR...

Yeni dövlət katibi "demokratiya naminə rəngli inqilablar" siyasətinin ziyanından bəhs edib; analitikə görə, respublikaçılar ölkələrin daxili işlərinə qarışmırlar və postsovet məkanında baş vermiş çevrilişlərin indi fəsadları görünür



yazısı səh.7-də

# 2025-də ərzaq təhlükəsizliyimizə dair gözlənti - ekspertdən açıqlama

Qalxıb-enən qiymətlər nəyin anonsudur; deputat: "Əgər hər hansı strateji əhəmiyyət daşıyan ərzaq məhsulunun qiymətində artımlar varsa..."

yazısı səh.4-də



Elman Nəsirov

*Deputat:*

**"Brüssel, Vaşinqton və ya başqa paytaxtlar vasitəçi yox, təşkilatçı qismində iştirak edə bilərlər"**

yazısı səh.9-da



**Baydenin Azərbaycana sonuncu pisliyi - Tramp "miras"ı götürəcəkmi...**

yazısı səh.8-də



*Vüqar Bayramov:*

**"Yaşa görə müavinətin artırılması məqsədəuyğundur"**

yazısı səh.12-də

YENİ MÜSAVAT
N 10 (8620) 18 yanvar 2025



# Putin Rusiya və İran arasında imzalanan sazişdən danışdı

**Rusiya ilə İran arasında bu gün (dünən-red.) imzalanan Hərtərəfli Strateji Tərəfdaşlıq Sazişi bütün sahələrdə əməkdaşlığa təkan verəcək.**

Musavat.com TASS-a istinadən xəbər verir ki, bunu Rusiya prezidenti Vladimir Putin İran prezidenti Məsud Pezeşkianla görüşündə deyib.

"Sizin bugünkü səfəriniz xüsusi əhəmiyyət kəsb edir, çünki bizim nəinki əməkdaşlığımızın bütün sahələrini müzakirə etmək imkanımız olacaq, həm də Rusiya ilə İran arasında hərtərəfli strateji tərəfdaşlığa dair əsas saziş imzalayacağıq", - Rusiya başçısı bildirib.

Putin vurğulayıb ki, beynəlxalq gündəmlə bağlı Rusiya-İran məsləhətləşmələrinə həm dünyada, həm də Yaxın Şərqdə böyük tələbat var.

Rusiya prezidenti İranın ruhani lideri Ayətullah Əli Xameneiyə ən xoş arzularını çatdırıb:

"Biz bilirik ki, İran-Rusiya münasibətləri onun şəxsi nəzarəti altındadır və buna görə ona minnətdarıq".

"Regionumuzda üçüncü qüvvələrin mövcudluğu yalnız sabitliyi poza bilər".

Bunu isə Pezeşkian Vladimir Putinlə görüşdə bildirib.

Onun sözlərinə görə, Rusiya Federasiyası ilə əlaqələr strateji əhəmiyyətli və hərtərəfli xarakter daşıyır və Rusiya ilə Hərtərəfli Strateji Tərəfdaşlıq Sazişi gələcək inkişaf üçün möhkəm təməl olacaq.

❑ Nigar HƏSƏNLİ,
Musavat.com



# Azərbaycanda evlənmək istəyənlər azalıb

**Azərbaycanda ötən ilin 11 ayında nikahların sayı azalıb, boşanmaların sayı isə dəyişməyib.**

Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Bildirilib ki, ötən ilin 11 ayında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 46 min 146 nikah və 19 min 597 boşanma halları qeydə alınıb.

Məlumata görə, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 5,3-dən 4,9-a düşüb, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə (2,1) qalıb. (Report)

# İsrail Qəzzada girov və atəşkəs razılaşmasını təsdiqləyib

**İsrailin Təhlükəsizlik Kabineti Qəzzada girov və atəşkəs razılaşmasını təsdiqləyib.**

APA xəbər verir ki, bu barədə Baş Nazirlik Ofisi bildirib.

İsrail mediasının məlumatında qeyd edilib ki, 6 həftə davam edəcək birinci mərhələdə aralarında 50 yaşdan yuxarı kişilərin və qadınların, o cümlədən uşaqların da olduğu 33 yəhudi sərbəst buraxılacaq.

Razılaşma icra edilsə təqribən 990-1650 nəfər arasında şəxs evinə qayıda biləcək.

Qeyd edək ki, HƏMAS dünənki bəyanatında razılaşma ilə bağlı fikir ayrılıqlarının aradan qalxdığını elan edib.

# Hakan Fidan bu gün Azərbaycana gələcək




**Türkiyə xarici işlər naziri Hakan Fidan bu gün Azərbaycana işgüzar səfərə gələcək.**

Bu haqda Türkiyə mətbuatı məlumat yayıb.

Xarici işlər naziri Fidanın həmkarı Ceyhun Bayramovla yaxın regiona və qlobal məsələlərə, o cümlədən Azərbaycan-Ermənistan sülh prosesi, Suriya, Qəzza və Ukraynadakı proseslərə dair fikir mübadiləsi aparacağı gözlənilir.

Səfər çərçivəsində xarici işlər naziri Fidan Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən də qəbul olunacaq.




# USAID-in Azərbaycanda fəaliyyəti tam dayandırılacaq

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ötən gün keçirilən mətbuat konfransında ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin (USAID) yardımlarının xoşniyyətli olmadığını bildirib.**

C. Bayramov qeyd edib ki, USAID-in ölkəmizə yardımları ABŞ-ın mənafeyi üçün edilirdi: "Buna görə də biz ABŞ ilə sazişlərə xitam verilməsini, USAID-in layihələrinin dayandırılmasını tələb etdik. Onlar isə bunun dayandırılmasını istəmirdilər. Ona görə də biz bundan sonra yazılı təkliflərimizi ABŞ tərəfinə göndərdik və müzakirələr aparıldı".

Nazirin sözlərinə görə, USAID-in fəaliyyəti 2024-cü il iyunun 1-dən etibarən de-yure dayandırılıb: "Onların (USAID) fəaliyyətinin tam olaraq dayandırılmasının vaxtı yetişib".

# Azərbaycanla Rusiya arasında qatarla sərnişindaşıma bərpa olunur?



**Mart ayından etibarən Azərbayan və Rusiya arasında dəmiryolu ilə sərnişindaşıma bərpa olunacaq.**

Bu barədə "Gununsesi.info"ya məlumatlı mənbələr bildirib. Qeyd olunur ki, hər iki ölkənin müvafiq qurumları arasında bununla bağlı razılıq əldə olunub.

Ötən il dekabrın 25-də Bakıdan Qroznı şəhərinə uçan Azərbaycan Hava Yollarına məxsus "Embrader 190" sərnişin təyyarəsinin Rusiya səmasında HHQ tərəfindən vurulmasından sonra qonşu ölkənin 10-a yaxın hava limanına uçuşlar dayandırılıb.

Məlumdur ki, bu hadisədən bir neçə gün sonra gözləntilərin əksinə, Baş nazir Əli Əsədov Azərbaycanda xüsusi karantin rejiminin növbəti dəfə aprelin 1-ə qədər uzadılması haqda qərar verib. Nəticədə Rusiyada çalışan azərbaycanlılar gediş-gəliş problemi ilə üzləşib.

Görünür, Rusiya və Azərbaycan hökumətləri arasında qatarlar vasitəsi ilə sərnişindaşımanın bərpa olunması barədə razılaşma problemin qismən həllinə yönəlib.

# "Toplum TV" işi üzrə istintaq yekunlaşdı

**"Toplum TV" işi üzrə istintaq yekunlaşıb.**

Bu barədə Modern.az-a vəkil Elçin Sadıqov məlumat verib.

Onun sözlərinə görə, vəkillər cinayət işi materialları ilə tanış olmaq üçün dəvət edilib.

Qeyd edək ki, ötən il martın 6-da "Toplum TV"nin ofisində axtarış aparılıb.

Bakının Nərimanov rayonu Y. V. Çəmənzəminli küçəsi, ev 98 B ünvanında yerləşən ofisdə və əlavə digər ünvanlarda bir qrup şəxsin fəaliyyəti ilə bağlı daxil olan məlumat üzrə polis əməkdaşları əməliyyat-axtarış tədbirləri keçirib.

Bakı şəhəri Xətai Rayon Məhkəməsində "Toplum TV"nin həmtəsisçiləri Akif Qurbanov, Ələsgər Əhmədoğlu (Məmmədli), əməkdaşları və III Respublika Platformasının qurucu üzvü Ruslan İzzətli barəsində həbs qətimkan tədbiri seçilib. Onlara qarşı Cinayət Məcəlləsinin 206.3.2 (qaçaqmalçılıq qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə cinayət işi açılıb.

Daha sonra iş üzrə təqsirləndirilən şəxslərə qarşı Cinayət Məcəlləsinin 162-1.1, 192.3.2, 193-1.3.1, 193-1.3.2, 206.4, 213.2.1 maddələri ilə yeni ittihamlar irəli sürüldüyü bildirilir.

"Toplum TV" işi üzrə barəsində polis nəzarəti altında olma qətimkan tədbiri seçilmiş jurnalist Fərid İsmayılov dünən saxlanılıb.

APA xəbər verir ki, onunla bağlı həbs qətimkan tədbirinin tətbiqi barədə istintaq orqanı tərəfindən məhkəməyə təqdimat daxil olub.

Fərid İsmayılovla birgə otaq yoldaşı olan Nihat İbrahimxəlilov (Libertayn) da saxlanılıb.

YENİ MÜSAVAT
N 10 (8620) 18 yanvar 2025

# Bakıda "Nürnberq prosesi" başladı - tarixi məhkəmə

## Bakı Məhkəmə Kompleksində hazırlıq iclası keçirildi; proses yanvarın 21-də davam etdiriləcək

**Yanvarın 17-də Bakı Məhkəmə Kompleksində Ermənistanın aləti olan, birbaşa Ermənistan dövləti tərəfindən idarə olunan, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində yaradılmış "Dağlıq Qarabağ Respublikası"nın qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycana qarşı törədilmiş qanunsuz əməllərə dair cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.**

Musavat.com xəbər verir ki, növbəti məhkəmə iclası yanvarın 21-nə təyin olunub.

Ararik Arutyunyan da daxil, 15 erməninin işi üzrə 2548 epizoddan ibarət cinayət işi Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə araşdırılır. Müttəhimlər 2 may 2024-cü il tarixdə Azərbaycan baş prokurorunun qərarı ilə 1987-ci ilin oktyabr ayından 22 aprel 2024-cü il tarixədək törədilmiş cinayətlərin bir qismi ilə bağlı Baş Prokurorluq və respublikanın ayrı-ayrı istintaq qurumlarında istintaq edilən 1389 cinayət işini bir icraatda birləşdirilib və Azərbaycan Baş Prokurorluğunun rəhbərlik etdiyi, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Hərbi Prokurorluğun müstəntiqlərindən ibarət tərkibdə istintaq olunub. Həbs edilənlər Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç), Harutyunyan Arayik Vladimiri (Vladimiroviç), Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi (Klimoviç), Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurqen Homerosi, Balayan Levon Romiki, Babayan Madat Arakeli (Arakeloviç), Beqlaryan Vasili İvani və Qazaryan Erik Robertiyedir.



Onlar Azərbaycan Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhv etmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

Həbs edilən şəxslərin hər birinin müdafiə, bildiyi dildən istifadə etmək və digər prosessual hüquqları təmin edilib. Bu maddələrin sanksiya həddi ömürlük azadlıqdan məhrum etməyə qədərdir.

Dünən qondarma "Dağlıq Qarabağ Respublikasının dövlət naziri" olmuş Ruben Vardanyanın cinayət işi üzrə də Bakı Hərbi Məhkəməsində məhkəmə başlayıb.

Ruben Vardanyana Azərbaycan Cinayət Məcəlləsinin ümumilikdə 42 maddəsi ilə ittiham elan olunub. Terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, Azərbaycan və xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlərin törədilməsi faktları ilə bağlı DTX-nin İstintaq Baş İdarəsində cinayət işinin istintaqı aparılıb.

Belə ki, Rusiya vətəndaşı olmuş, hazırda Ermənistan vətəndaşı olan, Rusiyada "Troyka Dialoq" şirkətinin təsisçisi və rəhbəri olmuş, Rusiya Federasiyasında "KAMAZ" ASC-nin direktorlar şurasının üzvü, həmin ölkədə "Volqa-Dnepr" şirkətlər qrupunun müstəqil direktoru və sair vəzifələrdə çalışmış Ruben Karlenoviç Vardanyan 25 sentyabr 2023-cü il tarixində Azərbaycan Cinayət Məcəlləsinin 214-1, 279.3 və 318.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində axtarış elan edilib, 27 sentyabr 2023-cü il tarixində saxlanılaraq istintaqa təhvil verilib və həmin tarixdə ona ittiham elan edilib.

İstintaqın topladığı mötəbər sübutlar əsasında təqsirləndirilən şəxs Ruben Vardanyana Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ respublikası" və qanunsuz silahlı birləşmələri əhatə edən cinayətkar birlikdə, qanunsuz silahlı birləşmələrin və qrupların yaradılmasında və fəaliyyətinin təşkilində iştirak edərək Azərbaycanın Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, aparma), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə) maddələri ilə təqsirləndirilib.

Həmçinin ona həmin məcəllənin 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma), 318-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələrində nəzərdə tutulan əməllərin törədilməsi ilə bağlı yekun ittiham elan olunub.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Təyyarə faciəsi ilə bağlı kritik 1 həftə

## Astananın açıqlayacağı hesabat mühüm əhəmiyyət daşıyır; **hüquqşünas:** "Bu məsələdə Qazaxıstan Rusiyanın təzyiqinə boyun əyməyəcək"

Qazaxıstanın Nəqliyyat Nazirliyi Azərbaycan Hava Yollarına məxsus təyyarənin qəzaya uğraması ilə bağlı ilkin hesabat dərc olunana qədər qeyri-rəsmi məlumatı şərh etməyəcək. Bu barədə qurumun mətbuat xidməti məlumat yayıb.



"Qazaxıstan Nəqliyyat Nazirliyinin Aviasiya Qəzalarının Təhqiqat Komissiyası hadisənin səbəblərini müəyyən etmək üçün işləri davam etdirir. İlkin hesabat dərc olunana qədər komissiya heç bir rəsmi mənbəyə malik olmayan internet məlumatlarını şərh etməyəcək", - məlumatda deyilir.

Qeyd edək ki, bəzi Rusiya media orqanlarında AZAL pilotlarının danışıqlarının stenoqramı dərc olunub. İddia olunur ki, Azərbaycan Hava Yollarının Embraer E190 təyyarəsinin komandiri müstəqil olaraq Bakıya geri uçmaq qərarına gəlib, Rusiya dispetçerləri isə ona Rusiya ərazisinə eniş üçün bir neçə variant təklif edib.

Rusiya XİN-in rəsmisi Mariya Zaxarova isə son brifinqdə məsələ ilə bağlı bildirib ki, faciə ilə bağlı Rusiya ilə Azərbaycan arasında bütün səviyyələrdə təmas qurulub. O, Azərbaycanın təyyarəsinin qəzaya uğramasının Rusiya üçün də faciəvi hadisə olduğunu söyləyib: "Prezidentlərimiz iki dəfə telefon danışığı apardılar. Xarici işlər nazirlərimiz danışıblar. Çox vacibdir ki, istintaq orqanları sıx əməkdaşlıq edir. Rusiya XİN başçısı Sergey Lavrovun illik mətbuat konfransında qeyd etdiyi kimi baş vermiş hadisənin bütün faktlar və faktorlar nəzərə alınaraq hərtərəfli təhlili aparılır. Qəza ilə bağlı hamıya həqiqət lazımdır".

Gözlənildiyi kimi, ilkin hesabat Qazaxıstan tərəfindən yanvarın 25-də, yəni bir həftə sonra olacaq.

Açıqlanacaq ilkin hesabat faciənin əsas səbəbi ilə bağlı "daşlaşmış" fikri təsdiqləyəcəkmi? Qazaxıstanın Rusiyanın təzyiqi ilə üzləşməsi mümkünmü?

Xatırladaq ki, rəsmi Bakı Rusiya tərəfinin məsələni ört-basdır etməyə çalışdığını bildirmişdi...

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan hüquqşünas Qulamhüseyn Əlibəyli deyir ki, Rusiya tərəfi çalışır ki, faciənin səbəblərini başqa yerlərdə axtarsın. Onun sözlərinə görə, Rusiya Ukraynanı hadisənin günahkarı kimi göstərmək istəyir. Yaxud da pilotları düzgün idarə etməməkdə təqsirləndirir: "Rusiyanın XİN başçısı S. Lavrov bildirdi ki, qara qutu ilkin versiyaları aradan qaldırır. Deməli, qara qutunun məlumatları Rusiyanın əlindədir. Rusiyanın rəsmi şəxsi bunu deyirsə, deməli, kifayət qədər əsası var. Olmasa idi, ölkənin xarici işlər naziri bu qədər açıq şəkildə açıq danışmazdı. Rusiyanın təzyiq imkanlarının genişləndiyini göstərir. Bunun özü dolayısı yolla Qazaxıstan və digər ölkələrə təzyiq vasitəsi kimi qiymətləndirilə bilər.

Doğrudur, Rusiya da istintaq prosesində iştirak edir. Amma bu iştirakın özü də təzyiq məqsədi daşıyır. Qara qutunun məlumatlarının necə olacağını Qazaxıstandan əvvəl qutunu açan tərəf araşdırma komissiyasının razılığı ilə açıqlamalı idi. Bir neçə gün də gözləyək, görək Qazaxıstan necə açıqlayacaq. Bundan sonra təzyiqin gücü haqqında son fikri bildirmək olar.

Fakt odur ki, Rusiya ictimai rəy və öz rəsmiləri vasitəsi ilə Qazaxıstana müəyyən təzyiqlər göstərməyə çalışır. Təyyarənin quş sürüsü ilə toqquşması ilkin versiya idi, ola bilsin ki, həmin an təyyarəçilər nə baş verdiyini anlamayıblar və sürü ilə toqquşduqlarını zənn ediblər. Ona görə də Rusiya başlanğıcda bu iddianı irəli sürürdü. Amma sonra əsaslı sübutlar göstərdi təyyarə vurulub. Və ən doğru məlumat qara qutu vasitəsi ilə açılıb ki, bu da Rusiyanın əlindədir".

Ekspert dedi ki, Azərbaycan hakimiyyəti bu mövzuda sərt mövqedədir: "Rusiyanın hadisədəki günahını boynuna almasına yönəlmiş qətiyyət göstərilir. Putinin hadisənin Rusiya səmasında baş verdiyi üçün üzr istəməsi yetərli sayıla bilər, sayılmaya da. Rusiya etiraf etməli, kompensasiyanı ödəməlidir. Azərbaycan hakimiyyətinin geri çəkilmək fikri yoxdur. Rusiya isə hələ də çalışır ki, fikirləri başqa yerlərə yönəltsin. Bu məsələdə Qazaxıstandan da çox şey asılı olacaq. Düşünürəm ki, bu məsələdə Qazaxıstan Rusiyanın təzyiqinə boyun əyməyəcək. Bir neçə il bundan əvvəl KTMT ordularının Qazaxıstandan çıxarılmasına nail oldusa, deməli, Rusiyadan qorxmayacaq".

❑ **Şahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**

# Azərbaycanda ötən il 38 mlrd. manatlıq neft və qaz istehsal olunub



**Ötən il Azərbaycanda mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 41 179,5 mln. manat olmaqla, əvvəlki ilin müvafiq ayına nisbətən 1% çoxdur.**

Bu barədə "APA-Economics" Dövlət Statistika Komitəsinin aylıq hesabatına istinadən xəbər verir.

Hesabata əsasən, qeyd olunan ümumi göstəricidən 38 009,6 mln. manat xam neft və təbii qazın hasilatının payına düşüb, bu da illik müqayisədə 1,2% çoxdur.

Məlumata görə, sahənin əsas məhsulu olan əmtəəlik neft hasilatı 28 997 mln. ton, əmtəəlik təbii qaz hasilatı isə 38 668,6 mlrd. kubmetr təşkil edib.

"Əmtəəlik neft hasilatı əvvəlki ilin müvafiq ayları ilə müqayisədə 3,6% azalıb, əmtəəlik qaz hasilatı isə 6,2% artıb", - məlumatda qeyd olunur.

Məlumatda qeyd olunur ki, hesabat dövründə Azərbaycanda cəmi 29 063 min ton neft (3,6% azalma) və 50 596,7 mln. kubmetr qaz (4,3% artım) hasil edilib.

# 2025-də ərzaq təhlükəsizliyimiz necə olacaq - ekspertdən açıqlama

## Qalxıb-enən qiymətlər nəyin anonsudur; **deputat:** "Əgər hər hansı strateji əhəmiyyət daşıyan ərzaq məhsulunun qiymətində artımlar varsa..."



**Azərbaycanda 2024-cü ilin dekabrında ərzaq məhsullarının qiyməti əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,5 faiz artıb. Bu hesablamanı Dövlət Statistika Komitəsi həyata keçirib. Komitənin açıqladığı məlumatdan aydın olur ki, ötən ilin dekabr ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox bahalaşma yumru düyünün, təzə balığın, pasterizə olunmamış üzlü südün, yumurtanın, zeytun yağının, narın, naringinin, üzümün, heyvanın, xurmanın, almanın, bananın, qozun, fındığın, xiyarın, pomidorun, sarımsağın, soğanın, balqabağın, limonadın qiymətlərində müşahidə olunub.**

Ucuzlaşma isə əsasən qarabaşaq və manna yarmasının, çörəyin, mal və qoyun ətinin, kəsmiyin, süfrə marqarininin, qarğıdalı və günəbaxan yağlarının, portağalın, limonun, kələmin, yerkökünün, çuğundurun, kartofun, şəkər tozunun qiymətlərində müşahidə olunub.

Azərbaycan hökuməti 2025-ci ilin dövlət büdcəsi layihəsində cari il üçün 4,6 faizlik inflyasiya proqnozlaşdırıb. Mərkəzi Bank isə 2025-ci ildə inflyasiyanın 5,8 faiz olacağını gözləyir.

Qeyd edək ki, qlobal bazarlarda ərzaq qiymətləri ötən ilin ikinci yarısında müəyyən artım nümayiş edirib. Bu artım dekabrda cüzi azalma ilə əvəzlənib. BMT Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının(FAO) məlumatına görə, qlobal ərzaq qiymətləri indeksi(IFPI) 2024-cü ilin dekabr ayında 0,6 bənd (0,5 faiz) azalaraq 127,0 bənd təşkil edib. İndeksin dəyəri keçən ilin müvafiq göstəricisindən 8,0 bənd (6,7 faiz) yüksək olsa da, 2022-ci ilin mart ayında qeydə alınan pik səviyyəsindən 33,2 bənd (20,7 faiz) aşağıdır. 2024-cü ilin sonunda IFPI-nin ümumi dəyəri 122,0 bal təşkil edib ki, bu da 2023-cü ilin orta göstəricisindən 2,6 bənd (2,1 faiz) aşağıdır.

Qlobal Taxıl Qiymətləri İndeksi dekabrda noyabrla müqayisədə az dəyişərək orta hesabla 111,3 bənd təşkil edib. Bu, keçən ilin dekabrından 11,5 bənd (9,3 faiz) aşağıdır. Dekabrda buğdanın ixrac qiymətləri dəyişməyib. Argentina və Avstraliyadan bol məhsul yığımı mövsümü qlobal tələb və təklifin zəif artması fonunda qiymətləri aşağı çəkib.

FAO Bitki Yağı Qiymətləri İndeksi dekabrda orta hesabla 163,3 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0,9 bənd (0,5 faiz) aşağı, lakin hələ də ötən ilin dekabrındakı səviyyəsindən 33,5 faiz yüksəkdir. Qeydə alınmış cüzi azalma, ilk növbədə, palma yağının mülayim qiymət artımı fonunda soya, kolza və günəbaxan yağlarının qiymətlərinin azalması ilə əlaqədardır. 2024-cü ilin sonunda qlobal təklifin azalması fonunda FAO Bitki Yağı Qiymət İndeksinin dəyəri 138,2 bənd təşkil edib ki, bu da 2023-cü ilin göstəricisindən 11,9 bənd və ya 9,4 faiz yüksəkdir.

FAO Ət Qiyməti İndeksi dekabrda orta hesabla 119,0 bənd təşkil edib ki, bu da noyabrdan 0,5 bənd (0,4 faiz) çoxdur; Beləliklə, bu indeks üç aylıq davamlı enişdən sonra artım göstərib. Cari səviyyədə bu indeksin dəyəri ötən ilin müvafiq dövründən səviyyəsindən 7,9 bənd (7,1 faiz) yüksək olub. Ət Qiyməti İndeksi 2024-cü ildə orta hesabla 117,2 bənd təşkil edib ki, bu, 2023-cü ildən 3,1 bənd (2,7 faiz) çoxdur. Bu da dünyada istehsalın yavaşlaması fonunda əsas ət idxal edən ölkələrdən güclü idxal tələbini əks etdirir. Bu tendensiya mal əti, quzu və quş əti üçün orta qiymətlərin artmasına səbəb olub, donuz ətinin orta qiymətləri isə xüsusən də Çindən zəif idxal tələbinə görə azalıb.

Qlobal Süd Məhsulları Qiymət İndeksi dekabrda orta hesabla 138,9 bənd təşkil edib ki, bu da noyabrla müqayisədə 1,0 bənd (0,7 faiz) azalma deməkdir. Beləliklə, bu indeksin dəyərində 7 aylıq davamlı artımdan sonra ilk azalma qeydə alınıb, lakin indeks ötən ilin müvafiq dövrü ilə müqayisədə 20,2 bənd (17,0 faiz) yüksək olaraq qalıb. Süd Qiyməti İndeksi 2024-cü ildə orta hesabla 129,6 bənd təşkil edib ki, bu da 2023-cü il səviyyəsindən 5,8 bənd (4,7 faiz) çoxdur. Bu artım, ilk növbədə, dünyada tələbatın artması və gözlənilməz hava şəraitinin istehsala mənfi təsir göstərməsi nəticəsində ixrac tədarükünün azalmasına görə kərə yağının qiymətindəki sıçrayışla bağlıdır.

Dekabrda FAO Şəkər Qiymət İndeksi orta hesabla 120,0 bənd təşkil edib ki, bu da noyabrdan 6,4 bənd (5,1 faiz) aşağıdır. Bu indeksin dəyəri artıq ikinci aydır ki, azalır və nəticədə ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,2 bənd (10,6 faiz) aşağıdır.

FAO Şəkər Qiymət İndeksi 2024-cü ildə orta hesabla 125,8 bənd təşkil edib ki, bu da 2023-cü illə müqayisədə 19,2 bənd (13,2 faiz) aşağıdır. Əsas səbəbi il ərzində Braziliyadan rekord ixrac və 2024-2025-ci illər mövsümündə qlobal tədarük üçün əlverişli proqnozdur.

Yeni ilin başlanğıcında Azərbaycanda qaz, elektrik enerjisi və istilik haqqının artırılmasından sonra daxili bazarda qiymətlərin, xüsusilə də ərzaq məhsulları üzrə ciddi artacağı gözlənilir. İqtisadçı-ekspert Rövşən Ağayevin dediyinə görə, əgər yanacaq və digər tariflər də artırılmasa, bu qərarın 1,5 faizə yaxın əlavə inflyasiya yarada biləcəyi real görünür: "Yeni məsələn, bu artımlar olmadan Mərkəzi Bank 4-4,5 faiz inflyasiya gözləyirdisə, artımlar nəticəsində həmin rəqəm 5,5-6 faizə yüksələcək güman ki. Əgər yanacaq qiymətləri də artırılarsa, şərtlər dəyişəcək əlbəttə, yəni təsir daha böyük olacaq".

Onu da bildirək ki, ötən il Azərbaycanda strateji məhsulların bazarının monitorinqini nəzərdə tutan qanunverici baza yaradılıb. Nazirlər Kabineti dekabr ayında "Strateji əhəmiyyətli malların monitorinqi qaydası və həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişməsinin müəyyən edilməsi meyarları"nı təsdiqləyib. Bildirilir ki, monitorinqin məqsədi ölkənin strateji əhəmiyyətli mallarla təchizat dayanıqlığının təmin edilməsi üzrə vəziyyətin öyrənilməsi və həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişməsinin qarşısının alınması istiqamətində tədbirlər görülməsinin zəruriliyinin qiymətləndirilməsidir. Monitorinqin nəticələrinə əsasən strateji əhəmiyyətli mallarla təchizat dayanıqlığının pozulması və həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişməsi ehtimalına dair arayış Agentlik tərəfindən tərtib edilir və hər ayın 15-dək Nazirlər Kabinetinə təqdim edilir.

Kəskin qiymət dəyişməsi pərakəndə satış qiymətinin son 10 (on) gün müddətində 10 (on) faizdən çox dəyişməsi; həmçinin qiymət dəyişməsinin 1 (bir) aydan çox olmayan müddətdə davam etməsi ehtimalının olması halları hesab edilir və onun qarşısının alınması üçün tədbirlər həyata keçirilir.

Bundan əlavə, dekabrın sonunda Nazirlər Kabineti "Dövlət ehtiyatları üçün malların tədarükü, saxlanılması, buraxılması və uçotu qaydaları"nı təsdiqləyib. Qayda dövlət ehtiyatları üçün malların tədarükü, saxlanılması, buraxılması, uçotu və bu sahədə nəzarətin həyata keçirilməsi, dövlət ehtiyatlarına aid olan malların hərəkəti və mövcudluğu barədə hesabatın formasının və təqdim edilməsinin qaydasını və hüquqi əsaslarını müəyyən edir.

Müvafiq qanunvericiliyə əsasən dövlət ehtiyatları olaraq əsas ərzaq məhsullarının minimum 90 günlük ehtiyatlarının yaradılmasını nəzərdə tutur.

İqtisadçı-alim, Milli Məclisin üzvü Vüqar Bayramovun dediyinə görə, Nazirlər Kabinetinin son qərarı ilə strateji, fövqəladə və səfərbərlik ehtiyatları üçün malların tədarükü, saxlanılması, buraxılması, uçotu və bu sahədə nəzarətin həyata keçirilməsi, dövlət ehtiyatlarına aid olan malların hərəkəti və mövcudluğu barədə hesabatın formasının və təqdim edilməsinin qaydasını və hüquqi əsaslarını müəyyən edilib: "Dövlət ehtiyatları yalnız taxıl deyil, eyni zamanda əhalinin istifadə etdiyi digər vacib ərzaq məhsulları üzrə yaradılır. Strateji ehtiyatların həm dövlət, həm də bu sahədə fəaliyyət göstərən özəl şirkətlər tərəfindən yaradılması nəzərdə tutulur. İstehlak bazarında qiymətlərin monitorinqi nəticəsində əgər hər hansı strateji əhəmiyyət daşıyan ərzaq məhsulunun qiymətində artımlar varsa o zaman həmin ehtiyatlardan istifadə etməklə qiymətlərin tənzimlənməsi və artmış qiymətlərin aşağı salınması gözlənilir.

Yeni qaydaların qəbul olunması bu sahədə şəffaflığı artırmaqla yanaşı, yeni strateji ehtiyatların yaradılması hesabına istehlak bazarında tarazlığın qorunub saxlanması və ərzaq məhsullarının qiymətlərinin kəskin artımının qarşısının alınmasına dəstək verəcək. Bura təxminən 12 adda ərzaq məhsulları daxildir və söhbət çörək, çay, qənd, yağ, düyü və s. kimi zəruri ərzaq məhsullarından gedir. Gözlənilir ki, strateji ərzaq məhsullarının qiymətində kəskin artımların qarşısı məhz həmin ehtiyatlardan istifadə etməklə alınacaq və bu da bazarda vətəndaşlarımız üçün strateji ərzaq məhsullarının daha optimal qiymətə təklif edilməsinə imkan verəcək".

Bir məsələni də qeyd etməyə dəyər ki, Azərbaycanda əsas ərzaq məhsulları ilə təminatda böyük ölçüdə idxaldan asılıdır. İdxal, eyni zamanda daxili bazarda pərakəndə satış inhisarçı qrupların əlində cəmləşdiyinə görə qiymətlər davamlı olaraq artır. Buna görə də 2025-ci ildə də ərzaq qiymətlərinin bahalaşması gözlənilir.

**Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 10 (8620) 18 yanvar 2025



# "Gürcüstanla Azərbaycan Avropa ilə Asiya arasındakı körpü rolunu uğurla oynayır"

## İlham Əliyev və Kobaxidze mühüm müzakirələr apardılar; iki ölkə arasında dörd sənəd imzalandı

**Yanvarın 17-də Prezident İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək görüşü keçirilib.**

Prezident İlham Əliyev və İrakli Kobaxidze daha sonra mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyev bəyanatında qeyd edib:

- Şadam ki, bizim görüşlərimiz müntəzəm xarakter alır. Biz sizinlə iki ay bundan əvvəl Bakıda görüşmüşdük. COP29 konfransında iştirak etdiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Ondan əvvəl isə 10 ay bundan qabaq Siz Azərbaycana səfər etmisiniz. Yəni, son 10 ay ərzində bu, Sizin Azərbaycana üçüncü səfərinizdir və bu fakt özlüyündə Gürcüstan-Azərbaycan əlaqələrinin nə qədər dərin və mənalı olduğunu göstərir.

Bu səfərin xüsusi əhəmiyyəti var. Çünki Gürcüstanda keçirilmiş parlament seçkilərindən sonra bu, Sizin ilk xarici səfərinizdir. Fürsətdən istifadə edərək, təmsil etdiyiniz "Gürcü Arzusu" Partiyasının seçkilərdəki qələbəsi münasibətilə Sizi bir daha səmimiyyətlə təbrik edirəm və Sizə, bütün komandanıza yeni uğurlar arzulayıram. Parlament seçkilərindən sonra ilk səfərinizi Azərbaycana həyata keçirməyiniz, təbii ki, Gürcüstan-Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Bu qərara görə Sizə xüsusilə təşəkkürümü bildirmək istəyirəm.

Bizim xalqlarımız əsrlər boyu dostluq, mehriban qonşuluq, qardaşlıq şəraitində yaşamışlar. Bu ənənələr bu gün də yaşayır. Bu gün Gürcüstan-Azərbaycan əlaqələri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Hesab edirəm ki, bizim siyasi əlaqələrimiz bütün qonşular üçün nümunə ola bilər. İqtisadi sahədə yaxşı nəticələr var. Azərbaycan Gürcüstan iqtisadiyyatına 3,6 milyard dollar sərmayə qoyub. Əlbəttə, bu onu göstərir ki, hökumətinizin uğurlu iqtisadi siyasəti, sərmayələrin cəlb edilməsi, Gürcüstanda olan çox müsbət sərmayə iqlimi bütün investorları həvəsləndirir. O cümlədən Azərbaycan investorları da böyük həvəslə Gürcüstana öz sərmayələrini qoyurlar.

Təbii ki, energetika sahəsindəki iki ölkə arasındakı əməkdaşlıq həm ölkələrimiz üçün, həm daha böyük, geniş coğrafiya üçün xüsusi əhəmiyyət daşıyır. Birgə həyata keçirdiyimiz neft-qaz layihələri bu gün bir çox ölkələrin enerji təhlükəsizliyinin əsasını təşkil edir. Təkcə onu demək kifayətdir ki, Gürcüstan tranziti vasitəsilə Azərbaycan hazırda 11 ölkəyə öz təbii qazını ixrac edir, ildən-ilə ixrac artır. Keçən il bu, 25 milyard kubmetrə çatmışdır və bunun 10 faizi - ümumi ixracımızın 10 faizi Gürcüstanın payına düşür. Mənə verilən məlumata görə, Gürcüstanın istehlak etdiyi təbii qazın 80 faizdən çoxu Azərbaycan mənşəlidir. Yəni, bu, doğrudan da çox böyük, xüsusi əhəmiyyətə malik olan layihədir və getdikcə bizim qaz ixrac coğrafiyamız genişlənəcək. Bizim yeni qaz yataqlarımız bu il işə düşəcək. Gələn il, ondan sonrakı illər üçün də yeni kəşf edilmiş yataqlar mövcuddur. Ona görə getdikcə təbii qazın ixracı artmalıdır və artacaqdır.

Bununla paralel olaraq, biz sizinlə birlikdə yaşıl enerji layihələrini də həyata keçiririk. Bu da hökumətlərimizin məsuliyyətini bir daha göstərir. Çünki bu gün bu enerji də bazarda böyük maraq doğurur, buna böyük tələbat var. Bu gün mənə verilən məlumata görə, yaşıl enerji layihəsi də uğurla icra edilir. Hesab edirəm ki, bütün digər layihələr kimi, bu layihənin də uğurla başa çatması şansı böyükdür.

Bu gün, eyni zamanda, Sizinlə təkbətək söhbət əsnasında bağlantıları və Orta Dəhliz layihəsini müzakirə etdik. Bizim ölkələrimiz burada da yaxın tərəfdaşlar kimi fəaliyyət göstərirlər. Bizim müvafiq qurumlarımızın koordinasiya şəklindəki fəaliyyəti bu layihəni də əminəm ki, uğurla başa çatdıracaq. Burada, əlbəttə ki, biz bir çox qonşularla təmasda olmalıyıq və bu təmaslar var. Bu da böyük coğrafiyanı əhatə edən layihədir və yenə də Gürcüstanla Azərbaycan burada Avropa ilə Asiya arasındakı körpü rolunu uğurla oynayır.

Bilirəm ki, Gürcüstanda nəqliyyat infrastrukturunun genişləndirilməsi layihəsi icra edilir. Azərbaycanda da bu layihələr icra olunur, o cümlədən nəqliyyat infrastrukturunun rəqəmsallaşdırılması layihəsi. Yəni, biz bu işləri paralel apararaq təbii ki, həm ölkələrimiz və xalqlarımız, həm də qonşularımız üçün çox əvəzolunmaz xidmətlər göstəririk.

Bütün digər sahələrdə də ancaq uğurlarımıza sevinmək olar. Vaxt məhdudluğunu nəzərə alaraq digər məsələləri biz geniş formatda bu gün (dünən-red.) müzakirə edəcəyik. Bir şeyi də deyə bilərəm ki, Sizin partiyanızın qələbəsi bütövlükdə Cənubi Qafqazın bundan sonra sabit region olması üçün xüsusi əhəmiyyət daşıyır və biz bu qələbəyə Sizin dostunuz, qardaşınız kimi sevinirik. Sizin hökumətinizə fəaliyyətində yeni uğurlar arzulayırıq. Bir daha xoş gəlmisiniz.

Sonra çıxış edən Baş nazir İrakli Kobaxidze Prezident İlham Əliyevə təşəkkürünü bildirib:

- Çox səmimi qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm. Eyni zamanda, bizim partiyamızın qələbəsi ilə bağlı təbriklərə görə də təşəkkür edirəm. Bu, bizim bölgəmizdə sabitliyin və təhlükəsizliyin təmin edilməsi, ölkələrimizin münasibətləri baxımından əhəmiyyətlidir. Bu, müstəsna əhəmiyyətə malikdir. Siz regionda fərqli bir Lidersiniz və bizim üçün də nümunəsiniz. Siz ölkənizə dövlətinizin mənafelərini qorumaqla rəhbərlik edirsiniz. Bu gün burada olmaq məndə böyük şərəf və məmnunluq doğurur.

Bildiyiniz kimi, bu gün iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 10-cu iclası keçirildi. İclas olduqca səmərəli oldu və mən azərbaycanlı həmkarlarıma iclasın yüksək səviyyədə keçirilməsinə görə təşəkkür edirəm. Onu da deyə bilərəm ki, biz əməkdaşlığımızı daha da irəli apara bilərik. Bizim dostluğumuzun, qardaşlığımızın tarixi ənənələri var və bu qardaşlıq məhz bu strateji tərəfdaşlığın təməli üzərinə dayanır.

Mən əminəm ki, bu tərəfdaşlıq gələcəkdə də eyni ruhda inkişaf edəcəkdir. Vacib məqam odur ki, biz hər birimizin strateji və milli maraqlarına hörmətlə yanaşırıq. Biz ölkələrimizin ərazi bütövlüyünü və suverenliyini qəti şəkildə dəstəkləyirik. Cənab Prezident, bu dəstəyə görə şəxsən Sizə və Azərbaycana təşəkkür edirəm.

Bizim təkbətək görüşümüzdə ikitərəfli münasibətlərimizin maraqlı müzakirəsi oldu. Biz regionda cərəyan edən prosesləri və qlobal hadisələri müzakirə etdik. Əlbəttə, bütün bu proseslərin bizim ölkələrə təsiri var, bu, bizim siyasi mövqeyimizə də təsir edir. Vacib məqam ondan ibarətdir ki, biz hər bir çağırışla bağlı birlikdə çalışmalıyıq. Cənubi Qafqazda sülh, sabitlik və təhlükəsizlik müstəsna əhəmiyyətə malikdir. Bir daha Sizi əmin etmək istəyirəm ki, biz bu sabitliyi təmin etmək üçün maksimum səy göstərməyə hazırıq.

Eyni zamanda, bizim münasibətlərin iqtisadi aspekti də çox vacibdir. Siz artıq müdrik şəkildə bizim ölkələrin strateji tərəfdaşlığını qeyd etdiniz. Bu layihələrin strateji və iqtisadi əhəmiyyəti var. Çox vacibdir ki, belə layihələr davamlı olsun və yeni layihələr müəyyən edilsin. Artıq qeyd etdiyim kimi, Azərbaycan Respublikası bizim üçün təkcə dəyərli dost deyil, Azərbaycan bizim üçün etibarlı tərəfdaş və qardaş ölkədir. Bu bağların dərinlənləşdirilməsi bizim marağımızdadır və biz bu münasibətlərə böyük əhəmiyyət veririk.

Cənab Prezident, Siz bağlantı layihələrini qeyd etdiniz. Bu, mühüm bir sahədir və bizim ikitərəfli əlaqələrimizin inkişafı baxımından da bu mövzu vacib əhəmiyyət kəsb edir. Bu coğrafi genişlənmədə ölkələrimiz əhəmiyyətli rol oynaya bilər. Biz Asiyanı Avropa ilə birləşdiririk və bu potensialdan maksimal dərəcədə istifadə etməliyik. Odur ki, bu layihələr bizim birgə fəaliyyətimiz nəticəsində mümkün olmuşdur. Hazırda üzərində işlədiyimiz növbəti layihələr var ki, onlar da bizim ölkələrin mənafeyi naminə bu potensialı genişləndirəcək. Bu tərəfdaşlığımızın irəlilədilməsi üçün əlavə səylər göstərməyə hazırıq.

İqtisadi-ticari sahə də çox vacibdir və biz çox məmnunuq ki, Azərbaycan Gürcüstanın beş əsas ticarət tərəfdaşı sırasındadır. Bizim tərəfdaşlığımız daha da dərinləşdirilməlidir. Biz hökumətlərarası komissiyanın iclasında da bunu müzakirə etdik. Bir daha qeyd etmək istəyirəm ki, bizim güclü təməllər üzərində qurulmuş əməkdaşlığımız, tarixi münasibətlərimiz və qardaşlığımız var. Xalqlarımız qarşısında da bunu bəyan etmək istəyirəm ki, biz siyasi tərəfdaşlığımızı dərinləşdirmək əzmindəyik və Gürcüstan tərəfi bunun üçün səylərini əsirgəməyəcək.

Mən mühüm dəstəyə və tərəfdaşlığa görə azərbaycanlı dostlara və həmkarlara, şəxsən cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm. Biz cənab İlham Əliyevin cari ildə Gürcüstana səfərini gözləyirik və ümid edirəm ki, bu il biz həmin şərəfə nail olacağıq.

Təşəkkür edirəm.

***

Nəzərə çatdıraq ki, Bakıda keçirilən Azərbaycan ilə Gürcüstan arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 10-cu iclasında dörd sənəd imzalanıb.

Bu barədə Musavat.com-a Nazirlər Kabinetindən məlumat verilib.

Bildirilib ki, Baş nazirlər Əli Əsədov və İrakli Kobaxidze Azərbaycan ilə Gürcüstan arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 10-cu iclasının Protokolunu imzalayıblar.

Eyni zamanda Azərbaycanın və Gürcüstanın Xarici İşlər nazirlikləri arasında konsulluq sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu, Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi arasında dəniz nəqliyyatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu, Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi arasında Niyyət Protokolu imzalanıb.

YENİ MÜSAVAT
N 10 (8620) 18 yanvar 2025

**Yanvarın 14-də Rusiyanın İrəvandakı səfiri Sergey Kopırkin Ermənistan Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb. Ermənistan XİN-in məlumatında deyilir ki, diplomat "Rossiya" telekanalında yayımlanan "Vesti nedeli" proqramının 12 yanvar 2025-ci il tarixli buraxılışında Ermənistanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönələn fikirlərlə bağlı XİN-ə dəvət olunub. Rusiya səfirinə müvafiq nota təqdim edilib.**

# Zəngəzur dəhlizinə əngəl cəhdi - İrəvanı cəsarətləndirən budur...

## Ekspertlər regionda yeni müsbət dinamika gözləyir; Paşinyan isə Qərbin dəstəyinə arxalanaraq Azərbaycana hücuma keçib: həm silahlanma, həm yardımlar almaq, həm müxtəlif platformalardan istifadə etmək...

"Yeni Müsavat" xatırladır ki, Dmitri Kiselyovun verilişində Zəngəzur dəhlizinin açılmasının vacibliyindən danışılır. Etiraz da əsasən bu ifadə ilə bağlıdır. Diqqətçəkicidir, Rusiyaya qarşı bu demarş Vaşinqtonda ABŞ-Ermənistan strateji tərəfdaşlıq sənədinin imzalanmasından dərhal sonraya təsadüf edir. Yeni İrəvan artıq ayaqlanmış, ruhlanmış kimi görünür və şübhə yox ki, Bakı ilə danışıqlarda da bundan sonra daha destruktiv mövqe sərgiləyəcək.

"ABŞ-ın Ermənistana xüsusi sərhəd mühafizə qrupu göndərməsi qonşu ölkələr olan İran, Azərbaycan və Türkiyəyə ciddi təsir göstərə bilər. Ümumilikdə bu sazişin imzalanması Qafqaz regionunda gərginliyi artıracaq potensiala malikdir. Həm də Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələdə ciddi bir əngəl kimi görünür". Bunu axar.az-a türkiyəli siyasi ekspert Engin Özər deyib. Onun sözlərinə görə, sazişin imzalanmasında ABŞ üçün əzəli rəqiblər olan İran və Çin faktoru dayanır: "Çinin "Bir kəmər, bir yol" layihəsi Avropa ilə əlaqəni üç əsas istiqamətdə təmin edir. Birincisi, şimal marşrutu Rusiya və Belarus üzərindən keçirdi, lakin müharibə səbəbindən bu yol bağlanıb. Dəniz marşrutu Qırmızı dəniz üzərindən Aralıq dənizinə bağlanırdı, lakin husilərin hücumları bu istiqamətdə ciddi problemlərə səbəb olub və gəmilər Ümid burnunu dolanmaq məcburiyyətində qalır. Real olan layihə isə Orta Dəhliz adlandırılan və Azərbaycanın Zəngəzur dəhlizinin açılması ilə Naxçıvana bağlanmasını nəzərdə tutan marşrutdur. ABŞ bu dəhlizi əngəlləyərək Avropa və Çin arasında ticarəti zəiflətməyə çalışır".

Politoloqun fikrincə, bu sazişin imzalanması Qafqaz regionunda vəziyyəti gərginləşdirə bilər: "Yaxın gələcəkdə İsrailin İrana qarşı əməliyyat başlatması gözlənilir. Bu vəziyyətdə Ermənistanla İran arasında mümkün ittifaqları əngəlləmək məqsədilə bu addımlar atılır. Paşinyan dövründə bu ittifaqlar nisbətən zəifledilib. Yaxın zamanda baş verə biləcək İran müharibəsi bölgədə əhalinin hərəkətliliyinin dəyişməsinə səbəb olacaq. Belə bir münaqişə sonrası böyük bir qaçqın dalğası gözlənilir". Özərin sözlərinə görə, ABŞ-ın İrəvana sərhəd mühafizə qrupu göndərməsi də Ermənistanla sərhədyanı ölkələr üçün arzulanan deyil: "Zəngəzurun açılmaması isə Türkiyənin Orta Asiya və Çinlə əlaqələrinin zəifləməsinə gətirib çıxaracaq. Bu, nə Türkiyə, nə də Azərbaycan üçün müsbət inkişafdır. Ancaq fiziki baxımdan Ankaranın bu məsələdə edə biləcəyi çox şey yoxdur. Türkiyənin bu məsələyə ciddi reaksiya göstərməsi mümkün deyil, çünki Ermənistan müstəqil dövlətdir və necə ki, KTMT ilə əməkdaşlıq edir, ABŞ-la da razılaşma əldə edə bilər".

Yada salaq ki, yanvarın 7-də yerli telekanallara müsahibəsində Prezident İlham Əliyev "Zəngəzur dəhlizi açılmalıdır və açılacaq" demişdi. Dövlət başçısı eyni zamanda, Bakının yeni administrasiya dönəmində ABŞ-Azərbaycan əlaqələrini strateji tərəfdaşlıq səviyyəsinə qaldırmağa hazır olduğunu söyləmişdi. Bəs imzalanan Blinken-Mirzoyan sənədi buna nə dərəcədə əngəl ola bilər? Tramp dönəmində Zəngəzur dəhlizi açılacaqmı? Nəhayət, Ermənistan regionda öz pozucu planlarına Amerikanın diqqətini qazanmaqda davam edə biləcəkmi?




Politoloq Qədir Aslan "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, imzalanan xartiyadan sonra Zəngəzur dəhlizinin açılması prosesi sürətlənəcək. Onun sözlərinə görə, bölgəyə qüdrətli dövlət gəlməliydi ki, onun vasitəsi ilə koridor işə düşsün:" Ancaq Rusiya və İran bu prosesdə istisnadır. Biz yaxın aylarda yeni təmasların şahidi ola bilərik. Eyni zamanda, Bakı və İrəvan arasında danışıqlar da intensivləşəcək və Ermənistan blokadadan çıxmaq üçün səylərini artırmalı olacaq. Regionda yeni bir canlanma və müsbət dinamika gözləyirəm".

Strateji Planlaşdırma və Araşdırmalar İnstitutunun rəhbəri Azad Məsiyev isə açıqladı ki, Paşinyanı hakimiyyətə Birləşmiş Ştatlar gətirib və onun himayəsi altında fəaliyyətdədir. Ekspert vurğuladı ki, Birləşmiş Ştatlar Paşinyan iqtidarını getdikcə möhkəmləndirir: "Bunun üçün onun əlini gücləndirir ki, hakimiyyətdə uzun müddət qala bilsin. O da ABŞ qarşısında öhdəlik götürüb ki, Rusiyanın Ermənistanda təsirini azaltsın, nüfuzunu aşağı endirsin. Paşinyan da Rusiyaya qarşı boykot taktikasından istifadə edir. Hazırda KTMT-də fəaliyyətini dondurub və Avrasiya İqtisadi Birliyində aktiv iştirak etmir. Paşinyanın siyasəti Rusiyanın Cənubi Qafqazda təsirini zəiflətmək və xəyanət yolu tutmaqdır. Onun Birləşmiş Ştatlardan aldığı dəstəklə bir qədər də cəsarətləndiyi görünməkdədir. İmzalanan xartiya da buna bariz nümunədir".

A.Məsiyev dedi ki, bu saziş həm də Azərbaycan əleyhinə yönəlib: "Birləşmiş Ştatlar həmin sənəddə sərhədlərin dəqiqləşməsi üçün Alma-Ata razılaşmasını dəstəkləyir. Bu da Ermənistanın mənafeyindən çıxış etməkdir. Çünki Azərbaycan əraziləri işğal altında saxlanan 30 il ərzində 1991-ci ilin Alma-Ata razılaşması gündəmə gəlməmişdi. Bundan əlavə, nəqliyyat xətlərinin açılmasında Ermənistanın suverenliyi xüsusi qeyd edilir. Bu sənədə əsasən, Ermənistan 10 noyabr üçtərəfli razılaşmasından imtina edir. Halbuki İrəvan həmin anlaşmada öhdəlik götürmüşdü ki, dəhlizə nəzarət Rusiyaya verilir. Xartiya isə üçtərəfli sənədin 9-cu bəndindən imtinanı nəzərdə tutur. Beləliklə, Paşinyan Qərbin dəstəyinə arxalanaraq Azərbaycana hücuma keçib: həm silahlanma, həm yardımlar almaq, həm müxtəlif platformalardan istifadə etmək... Avropa Birliyi və ABŞ isə Ermənistan üzərindən Cənubi Qafqaza daxil olmağa çalışır. Bu da bizim bölgəni xaosa çevirə bilər. Ümumilikdə ABŞ-Ermənistan arasında bu yaxınlaşma regionda münaqişəni alovlandırmağa hesablanıb".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**




## Bu kəndlər Azərbaycana qaytarılır - Abramyan

**ATƏT-in Minsk Qrupunun buraxılması və Ermənistan konstitusiyasına düzəlişlərin ən qısa müddətdə həyata keçirilməsinə təminat verildikdən sonra Nikol Paşinyan hökuməti sərhədlərin delimitasiyası məsələsində də Azərbaycanın tələbini qəbul edib.**

"Yeni Müsavat" xəbər verir ki, bunu Ermənistan parlamentinin deputatı Tiqran Abramyan deyib. Ötən ilin yayında Qazax-Tavuş istiqamətində həyata keçirilən demarkasiyaya diqqət çəkən deputat bildirib ki, prosesin bu yöndən başlaması Bakının tələbi olub. Abramyanın sözlərinə görə, bu istiqamətdə davam edəcək proses çərçivəsində Azərbaycanın anklav kəndləri - Sofulu, Barxudarlı və Yuxarı Əskipara da geri qaytarılacaq. "Ermənistan hakimiyyəti artıq Yuxarı Əskipara, Sofulu və Barxudarlı kəndlərinin Azərbaycana məxsus olduğunu bəyan edib".

Xatırladaq ki, iki ölkənin sərhəd komissiyalarının dünən keçirilən növbəti iclasında tərəflər dövlət sərhədinin delimitasiyası üzrə kompleks işlərin şimal sahəsindən başlayaraq, Azərbaycan, Ermənistan və Gürcüstan sərhədlərinin qovuşma nöqtəsi ərazisindən cənub istiqamətində, şimaldan cənuba, Azərbaycan və Ermənistanın İranla sərhədinə qədər başlanması barədə razılığa gəliblər.




## Minsk Qrupu yaya qədər buraxıla bilər

**Hökumət mənbələrinin məlumatına görə, Ermənistan və Azərbaycan yaya qədər ATƏT-in Minsk Qrupunun buraxılması ilə bağlı birgə ərizə təqdim edəcəklər. Ermənistanın "Hraparak" qəzeti məlumat yayıb. Qəzet yazıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2025-ci ilin əvvəlində mətbuata verdiyi geniş müsahibədə Minsk Qrupunun ləğvi tələbini bir daha səsləndirməsi Nikol Paşinyanı geri çəkilməyə, bu tələblə razılaşmağa məcbur edib.**

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 18-də Rusiya mətbuatına verdiyi müsahibəsində ilk dəfə Ermənistanla sülh sazişi layihəsinin razılaşdırılmayan maddələrinin nədən ibarət olduğunu açıqlayıb. Prezident deyib ki, bu sənədin 17 maddəsinin 15-i razılaşdırılıb, 2-si qalıb.

❑ **Xəbərləri hazırladı: EMİL**

YENİ MÜSAVAT
N 10 (8620) 18 yanvar 2025

# ABŞ “rəngli inqilab”lardan imtina edir - Qafqazı nə gözləyir...

## Yeni dövlət katibi “demokratiya naminə rəngli inqilablar” siyasətinin ziyanından bəhs edib; analitikə görə, respublikaçılar ölkələrin daxili işlərinə qarışmırlar və postsovet məkanında baş vermiş çevrilişlərin indi fəsadları görünür



**ABŞ Senatı Donald Tramp tərəfindən dövlət katibi vəzifəsinə namizəd göstərilən Marko Rubionun giriş nitqinin tam mətnini dərc edib. 15 yanvar tarixində Rubio senatorların suallarını dörd saatdan çox cavablandırıb, o cümlədən Ukraynadakı vəziyyətlə bağlı suallara cavab verib. Rubio nitqinə II Dünya müharibəsindən sonra qurulan sistemin “Amerikaya yaxşı xidmət etdiyini” qeyd etməklə başlayıb.**

Xüsusən də “soyuq müharibə” dövründə ABŞ-ın “şər imperiyası”nın (SSRİ-yə - red.) süqutuna nail olduğunu vurğulayıb. Lakin Rubioya görə, bu sistem artıq Vaşinqtonun maraqlarına zidd işləməyə başlayıb. O, qeyd edib ki, “soyuq müharibə”nin bitməsindən sonra ABŞ və ümumiyyətlə Qərb təhlükəli və yanlış fikrə düşüb və dünyanın bütün ölkələrinin Qərbin rəhbərliyi altında demokratik cəmiyyətin bir parçası olacağına inanıb. Rubio bildirib ki, milli maraqlara xidmət edən xarici siyasət “liberal dünya nizamı”nı dəstəkləyən siyasətlə əvəzlənib ki, bu da milli kimlikdən “bəşəri ailə” və “dünya vətəndaşı” ideyasına keçidə səbəb olub. “Bu isə yalnız bir fantaziya deyildi. Həm də təhlükəli və yanlış inanc idi”, - Rubio bəyan edib.

Məlumdur ki, hazırda Konqresin hər iki palatasına nəzarət edən Respublikaçılar Partiyası ənənəvi olaraq milli-mənəvi dəyərlərə, o sırada klassik ailə institutuna, həmçinin daxili problemlərə daha çox diqqət ayırır. Təsadüfi deyil ki, az öncə respublikaçı prezident Tramp çıxışlarının birində də LGBT-yə qarşı olduğunu, ABŞ cəmiyyətinin yalnız kişi və qadın cinsindən ibarət olması üçün qərarlar verəcəyini bəyan edib. Yeni dövlət katibi isə ilk çıxışında dolayısıyla digər ölkələrdə “demokratiya naminə rəngli inqilablar” siyasətinin ABŞ üçün ziyanından bəhs edib. Bu o deməkdirmi ki, Vaşinqton Tramp dönəmində “rəngli inqilab”lardan imtina edəcək? Regionumuzu nə gözləyir?

Yeri gəlmişkən, prezident İlham Əliyev bu barədə açıq danışmışdı və “məxməri inqilab” üçün qrantlar ayrılmasına işarə etmişdi. Sitat: “Bu təşkilatlarda çalışan və ya əməkhaqqı alan insanların sayı isə yəqin ki, on minlərlə, hətta daha çoxdur. Biz bilirik ki, bu, nə deməkdir. Çünki burada, bizim ölkəmizdə qrantla qidalananların və qrant verənlərin özlərini ağa kimi apardıqları dövr var idi, amma biz bunun qarşısını aldıq. Ona görə də hər hansı qurumun, istər Azərbaycan və ya xarici olsun, verdiyi istənilən qrant qeydiyyatdan keçməlidir və müvafiq orqanlar icazə verib-verməməyi nəzərdən keçirməlidir”.

Eyni zamanda, postsovet məkanında separatizmə son qoyan ilk ölkə kimi tarixə düşən Azərbaycan Cənubi Qafqazda prioritetlərini dünyaya elan etməkdədir. Qonşularla sülh şəraitində yaşamaq, əmin-amanlığa və regional inkişafa nail olmaq bu siyasətin təməl prinsiplərini təşkil edir. 30 il Qarabağ münaqişəsinin nizamlanmasına vasitəçilik etmiş Amerika Birləşmiş Ştatları (ABŞ) isə rəsmi Bakının müəyyən etdiyi bu hədəflərə dəstək vermək əvəzinə, ona qarşı çıxır. Bütün bunlar başadüşüləndir. 2000-ci illərdən postsovet məkanında “rəngli inqilablar”a start verən dövlətdən bundan artıq nəsə gözləmək olmazdı. ABŞ Cənubi Qafqazda Azərbaycanla bağlı istəyinə nail olmadıqda şantaj, hədə-qorxu və çirkin təbliğata üstünlük verməyə başladı. Ən böyük insan haqları pozuntusu - 1 milyon insanın öz ev-eşiyindən, doğma torpaqlarından qovulmasına göz yuman bu dövlət işğalı həyata keçirən separatçılara, onun əsas hamisi Ermənistana dəstək verdi, ona müxtəlif yardımlar ayırdı. Bu, qərəzin, ikiüzlülüyün bariz nümunəsidir.

Siyasi ekspert Ramiyə Məmmədovanın sözlərinə görə, ümumiyyətlə, respublikaçılar “rəngli inqilab”lara sponsorluq etmirlər və dövlətlərin daxili işlərinə qarışmırlar: “Trampın birinci prezidentliyi dövründə də ABŞ başqa ölkələrin siyasətinə insan haqları adı ilə müdaxilə etmədi. İrəlidəki 4 il ərzində də belə olacağını proqnozlaşdırmaq mümkündür. Hətta Konqresdə və Senatda respublikaçılar üstün olduqlarına görə qarşıdakı dövrdə hansısa qətnamələr də az olacaq. Demokratlar hansısa qanun layihələri irəli sürəcəklər, bəyanatlar verəcəklər, ondan o tərəfə keçməyəcək. Üstəlik, dünyada rəngli inqilablar dövrü bitib. Pandemiyadan bəri hər hansı hakimiyyət çevrilişi olmayıb”. Ekspertin fikrincə, Qərb buna sonuncu dəfə Gürcüstanda cəhd edib: “Amma vətəndaş cəmiyyətinin, liberalların aksiyaları ”Gürcü arzusu"nu devirə bilmədi. Ermənistanda onsuz da sorosçular iqtidardadırlar. Azərbaycanda isə buna potensial yoxdur. Son illərdə qrant qaçaqmalçılığı ilə bağlı həbslər də göstərdi ki, hakimiyyət kənar risqləri gözdən qaçırmır. Hətta bu haqda dövlət başçısı Kiselyova müsahibəsində də toxundu və Gürcüstanı nümunə gətirdi. Ona görə də Cənubi Qafqazda və postsovet məkanında pullu inqilabların dövrü geridə qalıb. Vaxtında olanların isə indi fəsadları və ya nəticələri ilə bağlı strateji mübarizə gedir - Ukraynada, Gürcüstanda, Ermənistanda, eləcə də Moldova və digər ölkələrdə proseslər son dərəcə həssasdır. Tramp isə merkantil maraqları olan siyasətçidir. Onun kommersant baxışı səbəbindən ABŞ-ın qarşıdakı 4 ildə siyasəti sanksiyalarla, iqtisadi basqılarla rəqiblərini əzmək olacaq. Bu sıxma-boğmalar hansısa sosial partlayışlara səbəb olacaqsa, o zaman ayrıca müzakirə mövzusudur". Təhlilçi hesab edir ki, ABŞ-ın yeni rəhbərliyi Çin və İrana sanksiyaları, ticarət müharibələrini gücləndirəcək, Rusiyaya sanksiyalar davam etdiriləcək, yeni “rəngli inqilab”lar deyil, iqtisadi təzyiqlər strategiyası seçiləcək: “ABŞ buna qədər Rusiyanı strateji cəhətdən məğlub edib. Suriyadan rusların çıxması, Ermənistanda ABŞ-ın təsirinin güclənməsi, Moskvanın isə buna yalnız bəyanatlar verməklə kifayətlənməsi onun Ukraynadakı bataqlıqda qan itirməsinin göstəriciləridir. ABŞ-nin siyasi doktrinası artıq ”ərəb baharı", yaxud “narıncı inqilab”lar deyil. Zaman göstərdi ki, siyasi çevrilişlər xaosla nəticələnir. Ən son olaraq Suriyada bu məsələni həll etdilər, onu da 13 illik qırğınlardan sonra..."

❑ **Emil SALAMOĞLU**
**“Yeni Müsavat”**



## Trampın komandası sanksiya savaşına hazırlaşır

**ABŞ-nin yeni seçilmiş prezidenti Donald Trampın müşavirləri yaxın aylarda Rusiya və Ukrayna arasında diplomatik razılaşmanın əldə olunmasına kömək etmək üçün geniş sanksiyalar strategiyası hazırlayırlar. Bu barədə nüfuzlu “Bloomberg” agentliyi anonim mənbələrə istinadən məlumat yayıb.**

Onlar bildiriblər ki, Trampın komandası iki əsas yanaşmanı nəzərdən keçirir. Birincisi, gələcək administrasiya Rusiyanın siyasətini daha aqressiv hesab edərsə, neft ticarəti ilə bağlı ikincidərəcəli sanksiyaları gücləndirmək olardı. Bu halda məhdudiyyətlər Hindistan və Çindəki böyük şirkətlər də daxil olmaqla, Avropa yükgöndərənlərinə və Asiyadan neft alıcılarına təsir edə bilər. Digər variant isə Danimarka və Türkiyədəki boğazlardan Rusiya neftini daşıyan tankerlərə qarşı daha qəti müdaxilələrə təkan verməkdir.

Daha yumşaq yanaşma istehsalçıların lisenziyalarının uzadılması və ya Rusiya neftinin qiymətinin artırılması imkanlarını əhatə edə bilər. “Bloomberg” yazır ki, Trampın komandası Ukraynadakı müharibənin qaçılmaz həllinin əlamətlərini görsə, bu tədbirlər mümkündür. Hələlik İran və Venesuelaya təzyiqləri özündə ehtiva edən sanksiya təzyiqi strategiyası, qeyd edildiyi kimi, ilkin mərhələsindədir. Trampın özünün hansı yanaşmaya meyil etdiyi məlum deyil.

Trampın ABŞ dövlət katibi vəzifəsinə namizədi, Florida ştatından senator Marko Rubio çərşənbə günü Senatda özünün təsdiqləmə dinləmələrində sanksiyaları münaqişənin sülh yolu ilə həllinə gətirib çıxara biləcək əsas rıçaq adlandırıb. “Bloomberg” qeyd edir ki, yanvarın 10-da ABŞ prezidenti postunu tərk edən Co Baydenin komandası Qərbin bu günə qədər gördüyü digər tədbirlərlə müqayisədə Rusiya ilə neft ticarətinə ən zərərli sanksiyaları tətbiq edib. Cümə günü “Qazprom Neft”, “Surqutneftegaz”, Rusiyanın kölgə donanması adlanan 180-dən çox gəmisi və digər şirkətlər məhdudiyyətlərə məruz qalıb. Nəticədə sanksiyalara salınmış 2 milyon barel rus nefti daşıyan 80-dən artıq tankeri dünya sularında qalıb, Hindistan və Çin limanları da onları qəbul edə bilməyib.

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 10 (8620) 18 yanvar 2025



# İndira Qandinin xalası oğlu

Zamin HACI
zaminhaci@gmail.com

**Ruben Vardanyanın və sair erməni quldurlarının məhkəməsi başlayıb. Bu münasibətlə Vardanyanın adından dünya informasiya məkanında bir bəyanat paylaşılır, açığı, düşmən də olsa Vardanyanın belə pis vəziyyətə düşməsini arzulamazdım, ancaq bir qədər gülməyim də tutdu, nə gizlədim. Çünki Ruben müəllim o mətndə özünü nə az, nə çox - Mahatma Qandi ilə müqayisə edib. Guya eynilə onun kimi sülh, dinclik-zad arzulayır, istəyir azadlığa çıxsın, gedib bizimkilərlə birgə savaşda ölənlərin - həm ermənilərin, həm azərbaycanlıların məzarlarını ziyarət eləsin və sairə və ilaxır.**

Əlbəttə. Sən Qandisən, yəqin Paşinyan da Nehru olar. Sarkisyan İndira Qandi, Araik Cimi, Köçəryan da, nə bilim, Zitanın xalasının əri. Yazıq qonşularımızda bu cür "yuxarıdan getmək" həmişə olub və həmişə də bu xasiyyət üzündən həm özləri zibilə düşüb, həm bizim kimi qonum-qonşuları. Müqayisə edirsən, heç olmazsa Saxarovdan-zaddan misal çək. Üstəlik, qahımlıq da olmalıdır, yanılmıramsa Saxarovun arvadı erməni idi. Yoxsa Qandi... Guya Qandi oliqarxların çirkli pullarını fırladaraq, 90-ların dərəbəylik şəraitində, maliyyə piramidaları tüğyan edən dövrdə Rasiyada milyonçu olub, sonra həmin pullarla başqa dövlətin ərazisində separatçılıq edib. Sözgəlişi, rəhmətlik Mahatma müəllimi heç Himalay dağlarında "Toyota" maşınında ələ keçirməmişdilər, aksiyalarını payi-piyada həyata keçirirdi.

Ancaq, insafən, müsbət dəyişikliyi qeyd etməliyik. Vardanyan bizim türməyə düşənəcən bundan da ötkəm guruldayırdı, qan-qan deyirdi. Bəlkə kiminsə yadından çıxıb, mən dəqiq xatırlayıram ki, gəlib Qarabağdakı qədim çinarın altında "öldü var, döndü yox" mahnısı oxumuşdu. İndi sülh, qardaşlıq söhbətləri açır. Sanki müəyyən qədər islah olunmuşdur. Hələ gör məhkəmə qərarından sonra, 13 nömrəli kalona getsə (misal üçün) necə mülayimləşə bilər. Necə deyərlər, adın nədir, Mülayim... Dövlətimiz bu istiqamətdə çalışır. Əlaqədar orqanlara dərin minnətdarlıq teleqramı göndəririk.

Hərçənd, bizim bu humanist siyasəti düzgün qiymətləndirməyən əcnəbilərə də ərazidə vaxtaşırı rastlaşırıq. Onlara elə gəlir ki, sanarsan Azərbaycanın mərhəmət və səxavət limiti, kisəsi sonsuza qədər genişlənir, el dilində desəm, bezrazmer şeydir. Nə qədər istəsən dart, uzanır. Qəti elə şey yoxdur. Səbrimizin həddi-hüdudu var. O cümlədən, səbrimizin həddini qanunsuz keçən, əsəblərimizdə elan olunan karantin qaydalarını pozanlara qarşı kəskin mübarizə metodları tətbiq edilir.

Tipik örnəyi təzəlikcə nazirliklərin birində yaşandı. Orada Bolqarıstandan bir zənən xeylağına nazir müavini vəzifəsi həvalə edilmişdi. Sanki özümüzdə nazir müavini qurtarmışdı. Bəlkə yaxşı rəqs etdiyi üçün qoyulmuşdu - dəqiq bilmirəm. Olsun, qlobal dövlətik, buna etirazımız yoxdur. Ancaq hörmətli zənən bu etimadı doğrultmaq yerinə cızığından çıxıbmış. Basıb gənc idmançılarımızı, məşqçiləri döyürmüş. Qovulmasa, tamaşaçılara əl qaldıracaqdı. Bunun hərəkətləri hətta dünya miqyasında bizi biabır edib, çünki döyülən idmançılar beynəlxalq federasiyaya şikayət yazıbmış. O şikayət üzündən Azərbaycan gimnastika yarışlarından bir müddət kənar edilibmiş.

Yuxarıda yazdığım kimi, bizim hökumət humanistdir, ancaq onun da səbrinin hüdudu var. Özümüz dura-dura, özgəsi niyə bizi döyməlidir? Adamın şəninə toxunur. Bu temada millətçi Etibar müəllim yaxşı deyibdir: "Öz millətimin cibi, başqa millətin kassasından əzizdir".

Ona görə nazir müavininin işdən çıxarılmasını zəhmətkeşlərimiz böyük minnətdarlıq hissi ilə qarşılamışdır. İnşallah, bir daha bolqarıstanlıları nazir müavini qoymarıq. Bəlkə özlərini sınamaq imkanı bu dəfə rumınlara və slovakiyalılara, macarlar və makedoniyalılara, çernoqoriyalılar və xorvatlara, serblər və polyaklara verilməlidir. Mümkündür ki, ən azı dost macar və slovak xalqlarından dövlətçiliyə uyğun nazir müavinləri tapa bilərik.

İndi söz əlaqədar təşkilatlarındır.



# Baydenin Azərbaycana sonuncu pisliyi - Tramp "miras"ı götürəcəkmi...

## ABŞ-la Ermənistan arasında sənədin məhz indi imzalanmasının ən vacib səbəbi

**Yanvarın 14-də ABŞ və Ermənistan arasında imzalanan strateji tərəfdaşlıq haqda xartiya ilə bağlı ekspert dairələrində müzakirələr davam edir. Belə baxış var ki, sənədin Ermənistan daxil, bölgə ölkələri üçün konkret hansı nəticələrinin və təsirlərinin olacağını bilmək üçün zamana ehtiyac var. Yəni bir az gözləmək lazımdır. Ən azından yeni prezident Donald Tramp öz komandası ilə iş başına keçənədək.**

İlkin qənaətlər isə belədir ki, saziş birbaşa Azərbaycana qarşı yönəlməyib, daha çox Vaşinqtonun Tehran və Moskva ilə maraq mübarizəsi planlarından qaynaqlanır. Hərgah xartiyada milli maraqlarımıza zidd bəndlər də var. Həmin bəndlər preambula və sənədin "Əməkdaşlıq prinsipləri" adlı 1-ci bölməsində əksini tapıb.

Orada deyilir: "Birləşmiş Ştatlar Ermənistan və Azərbaycan arasında sülh prosesini, o cümlədən 1991-ci il Almatı Bəyannaməsinə əsaslanan sərhədlərin delimitasiyası prosesini dəstəkləyir. Birləşmiş Ştatlar Cənubi Qafqazda ölkələrin suverenliyi və yurisdiksiyası əsasında regional nəqliyyat kommunikasiyalarının blokdan çıxarılmasını dəstəkləyir".

Siyasi analitiklərə görə, bu iki məsələ Bakı-İrəvan danışıqlarında əsas ziddiyyətli və prinsipial məqam sayılır. Çünki birincisi, sərhədin delimitasiyasının Almatı Bəyannaməsinə əsaslanması SSRİ dağılanda mövcud xətlərin əsas götürülməsi deməkdir və bu, Ermənistana sovetləşmə başlayandan 80-ci illərə qədər ermənilərə verilən Azərbaycan əraziləri üzərində legitimlik qazandırır, həmçinin İrəvanın sərhəddə "güzgü prinsipi" təklifini - ordumuzun yerləşdiyi strateji yüksəkliklərdən geri çəkilməsi - aktuallaşdırır. İkincisi, kommunikasiyanın "suverenlik prinsipi" əsasında açılması Zəngəzur dəhlizi layihəsinə qarşıdır və bu, həm də "dəhliz" məntiqinə qarşı irəli sürülən alternativləri - Kalininqrad dəmir yolu xətti modeli və s. - də arxa plana keçirə bilər.

Bəllidir ki, Bayden administrasiyası hər iki məsələdə Ermənistanın mövqeyindən çıxış edib. Strateji sənədin imzalanması ilə bu siyasət rəsmiləşmiş oldu və Trampa "miras" olaraq saxlanıldı. Bununla da Bayden Azərbaycana sonuncu pisliyini də etmiş oldu.

Narahatlıq yaradan başqa məqam kimi sənəddə əksini tapan "ABŞ Dağlıq Qarabağdan didərgin düşmüş şəxslərə və qaçqınlara yardım göstərməkdə Ermənistana dəstəyi davam etdirməyi planlaşdırır" qeydi hesab olunur. Ona görə ki, bu, "erməni qaçqınları" mövzusunda Azərbaycana qarşı ittihamları və Qarabağ məsələsini aktual saxlaya bilər. Hərçənd sənəddə "etnik təmizləmə" ifadəsi işlədilməyib.

Bəs Bayden hökuməti niyə məhz son anda, getfhagetdə bu sənədi imzaladı, tutaq ki, 1-2 il öncə mümkün deyildimi? Tramp ona saxlanılan "miras"a yiyə duracaqmı?

Politoloq Yusif Bağırzadə "Yeni Müsavat"a bildirdi ki, Ermənistanla ABŞ arasında strateji tərəfdaşlıq haqqında xartiyanın imzalanması üçün artıq bir müddət idi haqırlıq gedirdi. İmzalanan bu sənədə əslində keçən il aprelin 5-də ABŞ, Ermənistan və Avropa İttifaqı arasında keçirilən görüşlə başlayan prosesin davamı kimi baxmaq lazımdır. Həmin görüşdən sonra ABŞ-dan Ermənistana və əks istiqamətə çoxsaylı səfərlər, keçirilən görüşlər belə bir sənədin imzalanmasına hazırlığın getdiyini göstərirdi: "ABŞ Ermənistanın Rusiyadan asılılıq səviyyəsini nəzərə alaraq, eləcə də Paşinyan hakimiyyətinin Rusiyaya qarşı konkret addımlar atmaqdan çəkindiyini, Rusiya əleyhinə bəyanatların quru sözdən o yana keçmədiyini nəzərə alaraq prossesi uzadır və bununla da Ermənistan üzərinə müvafiq öhdəliklər qoyurdu.

Sənədin məhz indi imzalanmasının ən vacib səbəbi isə Tramp hakimiyyəti dövründə belə bir sənədin imzalanma perspektivinin aşağı olması ilə bağlıdır. Ermənistan tərəfi Tramp dövründə bu sənədin imzalnma ehtimalının aşağı olduğunu nəzərə alaraq sənədin məhz indi, yəni Bayden hakimiyyəti dövründə imzlanması üçün səy göstərirdi. Eyni dərəcədə ABŞ-da olan erməni lobbisi də Respublikaçılar dönəmində Trampa təzyiq rıçaqları olmadığından sənədin indi imzalanması üçün Bayden adminstrasiyasına təzyiq göstərirdi. Nəticədə Xartiya imzalandı".

Politoloq qeyd etdi ki, bundan sonra sənəddə nəzərdə tutulan məsələlərin hansı səviyyədə icra olunacağını zaman göstərəcək. Çünki bu sənəd Bayden administrasiyası tərəfindən Tramp üçün qoyulmuş bir miras kimi qəbul olunmalıdır. ABŞ tarixində əvvəlki hakimiyyətlər dövründə qəbul olunan strateji qərarlardan sonrakı hakimiyyətlər dönəmində imtina nadir hallarda baş verir: "Xüsusilə də əgər söhbət ABŞ-ın özünün strateji maraqlarından gedirsə. ABŞ-ın Cənubi Qafqaz maraqları kimin hakimiyyətdə olmasından asılı olmayaraq hər zaman olub və olacaq. Əgər Tramp və komandası ABŞ-ın Cənubi Qafqaz maraqlarını yenə də Ermənistan üzrəindən həyata keçirmək istəyəcəklərsə o zaman Baydenin mirasına sahib çıxacaqlar. Yox əgər Tramp regionun lider dövləti olan Azərbaycanın maraqlarını nəzərə almadan ABŞ-ın öz maraqlarını təmin etməsinin çətin olacağını anlayacaqsa o zaman indi haqqında danışılan sənədin də elə bir əhəmiyyəti qalmayacaq".

Ədalət Partiyasının sədr müavini, siyasi şərhçi Mütəllim Rəhimli isə bildirdi ki, ABŞ və Ermənistan arasında strateji tərəfdaşlıq haqqında müqavilənin imzalanması ciddi hadisədir. Bu Paşinyan iqtidarının qərbmeylli siyasətinin bir daha təsdiqidir. Müqavilədə də görsənir ki, ABŞ-yə Ermənistana kifayət qədər geniş imkanlar açılır. Bu Qərbin Cənubi Qafqazda hərbi və siyasi təsir dairəsinin artması, gücləməsidir: "NATO-nun Şərqə doğru genişləndirilməsi, ABŞ-nin Rusiya-İran birliyini sarsıdaraq Çinin əl-qolunu bağlamaq cəhdləri, həm də Cənubi Qafqazda möhkəmlənməsini tələb edir. ABŞ-də iqtidarlar dəyişsə də, siyasətdə köklü dəyişikliklər baş vermir. Ona görə də Tramp hakimiyyətinin Ermənistanla imzalanan sənədin üzərindən xətt çəkəcəyi inandırıcı görünmür. Ən pis halda bu müqavilə siyasi alver predmeti olacaq. Dünyanın yenidən bölüşdürülməsi, super güclərin toqquşması ilə müşahidə olunan müasir beynəlxalq münasibətlərdə əsas aktor Birləşmiş Ştatlardır. ABŞ özünün super güc statusunu əldən vermək istəmir. Köhnələn və artıq özünü doğrultmayan sistemi dəyişərək yenidən öz aparıcılığını saxlamaq əzmindədir. Qəbul etmək lazımdır ki, dünyada bu qədər qanların tökülməsi ilə dəyişiklikləri aparmaqla ABŞ özünü yeniləməkdə, təzələməkdə və gələcək dünyanın tələblərinə hazırlamaqdadır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# "Davosda Azərbaycan və Ermənistan rəhbərlərinin görüşünə zərurət var" - deputat

## "Brüssel, Vaşinqton və ya başqa paytaxtlar vasitəçi qismində yox, təşkilatçı qismində iştirak edə bilərlər"

**Azərbaycan prezidenti İlham Əliyevin Davosda keçiriləcək Dünya İqtisadi Forumunda iştirakı gözlənilir. Azərbaycan Prezidentinin iştirakı ilə bağlı Forumun saytında məlumat verilib.**

Bildirilir ki, forumda Avropa Komissiyasının sədri Ursula fon der Leyen, Çin Baş nazirinin müavini Dinq Syueksyan, Almaniya kansleri Olaf Şolts, Serbiya prezidenti Aleksandr Vuçiç, Ermənistanın baş naziri Nikol Paşinyan, Ukrayna prezidenti Vladimir Zelenski, İsrail prezidenti İsaak Hersoq və digər dövlət və hökumət başçıları da iştirak edəcəklər. ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp videokonfrans vasitəsilə foruma qatılacaq.

Dünya İqtisadi Forumu bu il yanvarın 20-dən 24-dək keçiriləcək.

Davosda Azərbaycan və Ermənistan liderlərinin ikitərəfli formatda bir araya gəlməsi istisna deyil. Bu, 2025-də ilk yüksək səviyyəli görüş ola bilər. Hazırda belə bir görüşə ehtiyac duyula bilərmi? Brüssel və ya Vaşinqton vasitəçilik təşəbbüslərini davam etdirməyə çalışacaqmı?

Milli Məclisin deputatı Elman Nəsirov "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin Davosda keçiriləcək Dünya İqtisadi Forumunda iştirak edəcəyi gözlənilir. Eyni zamanda o da məlumdur ki, Ermənistan baş naziri Nikol Paşinyan da bu Foruma qatılacaq: "Bunu artıq Ermənistan mətbuatı yazıb. Belə olan vəziyyətdə Azərbaycan Prezidenti ilə Ermənistan baş naziri arasında görüşün keçirilib-keçirilməməsi məsələsi də əsas müzakirə mövzularından biridir. Görüşün keçirilməsi üçün şans var. Ermənistanla Azərbaycan arasında həllini gözləyən bir sıra mühüm məsələlər var və sülh müqaviləsinin imzalanması əsas məsələdir. Bu müqavilənin imzalanmasına imkan verməyən maddələr mövcuddur. Həmin maddələr üzrə razılaşma hələ ki, əldə edilməyib. Sonuncu dəfə Kazanda Azərbaycan və Ermənistan liderləri görüşüblər. İndi Davosda görüşün keçirilməsi üçün zərurət var. Çünki Azərbaycan Prezidenti yerli televiziya kanallarına müsahibəsində bir daha Ermənistan-Azərbaycan sülh prosesi ilə bağlı prinsipial və qəti mövqeyini ifadə etdi. Eyni zamanda Zəngəzur dəhlizi ilə bağlı çox kəskin mövqe ortaya qoydu və qeyd elədi ki, Zəngəzur dəhlizi açılmalıdır və bu həm də 10 noyabr üçtərəfli bəyanatının mahiyyətindən irəli gəlir. Biz Zəngəzur dəhlizinə getməliyik və gedəcəyik. Ermənistan xalqı və rəhbərliyi də gözəl bilir ki, Azərbaycan Prezidentinin sözü imzası qədər gücə malikdir, dedisə, deməli edəcək. Ona görə də hesab edirəm ki, bütün reallıqlar fonunda, həm də ikitərəfli münasibətlərin həllini gözləyən məsələlər, xüsusilə də iki bənd üzrə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı hələ də razılaşma əldə edilə bilməyən məsələlər müzakirəsini gözləyir. Yanvarın 16-da Azərbaycan və Ermənistan Baş nazirlərinin müavinləri Şahin Mustafayevlə Mher Qriqoryanın sədrlik etdikləri dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların 11-ci görüşü keçirilib. Görüş zamanı Tərəflər növbəti mərhələdə delimitasiya işlərinin həyata keçirilməsi üçün sərhəd xəttinin sahələrinin/hissələrinin ardıcıllığı məsələsi ilə bağlı fikir mübadiləsini davam etdirib. Dövlət sərhədinin delimitasiyası üzrə kompleks işlərin şimaldan cənuba aparılması barədə razılığa gəlinib. Bu məsələlərlə bağlı, eləcə də ATƏT-in Minsk Qrupunun buraxılması üçün Ermənistanın və Azərbaycanın rəsmi müraciət etməsi kimi məsələlərin də Azərbaycan və Ermənistan liderləri arasında müzakirə edilməsi istisna deyil".




O ki, qaldı görüş və danışıqlar üçün Brüsselin və ya Vaşinqtonun vasitəçilik missiyası ilə çıxış edib-etməyəcəyinə deputat vurğuladı ki, Azərbaycan dövlətinin rəhbəri dəfələrlə bizə vasitəçilərin lazım olmadığını, ikitərəfli formatda birbaşa danışıqlar yolu ilə məsələləri tənzimləmək istədiyimizi, bu formatın daha effektli olduğunu bəyan edib: "Brüssel, Vaşinqton və ya başqa paytaxtlar vasitəçi qismində yox, təşkilatçı qismində iştirak edə bilərlər, təki sülh prosesinə töhfə vermiş olsun. Ona görə də Azərbaycan və Ermənistan liderlərinin Davosda görüşmək ehtimalı kifayət qədər böyükdür və bu da sülh prosesinin öz məntiqi sonluğuna çatması üçün əlavə imkanlar pəncərəsi açmış olar".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Azərbaycan və Türkiyə generallarının NATO görüşünün pərdəarxası - şərh

## Polkovnik: "NATO rəhbərliyi Azərbaycanın Sülh Naminə Tərəfdaşlıq Proqramında iştirakına müsbət baxır"



**Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Brüsselə səfəri çərçivəsində Türkiyə Respublikasının Silahlı Qüvvələrin Baş Qərargah rəisi ordu generalı Metin Gürakla görüşüb. Türkiyə Silahlı Qüvvələri məlumat yayıb. Kərim Vəliyev NATO-nun Hərbi Komitəsinin Baş Qərargah rəislərinin sessiyasında (15-17 yanvar) iştirak edib.**

Yada salaq ki, ötən il Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun dəvəti ilə Türkiyənin milli müdafiə naziri Yaşar Güler, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürak, Hərbi Dəniz Qüvvələri komandanı donanma admiralı Ercüment Tatlıoğlu, Quru Qoşunları komandanı ordu generalı Selçuk Bayraktaroğlu və Hərbi Hava Qüvvələri komandanı ordu generalı Ziya Cemal Kadıoğlu "ADEX" 5-ci Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək üçün Bakıya gəlib.

Qardaş ölkədən ən yüksək səviyyəli, belə böyük hərbi nümayəndə heyəti nadir hallarda Azərbaycana gəlir. Bu da ikitərəfli hərbi əməkdaşlığa verilən böyük önəmin təzahürü olmaqla yanaşı, heç şübhəsiz, bölgəmiz və onun ətrafında cərəyan edən təhlükəli proseslərlə, o sırada son vaxtlar artan müharibə riskləri və Ermənistanın sülhdən yayınaraq sürətlə silahlanması ilə bağlı idi.

Bu dəfə isə generallar Brüsseldə görüşüblər. Müdafiə Nazirliyindən verilən məlumata görə, K.Vəliyev Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürak, İtaliya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Lusiano Portolano və Macarıstan Müdafiə Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Qabor Böröndi ilə keçirilən görüşlər zamanı ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, habelə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

Bölgədə yenə həssas proseslərin cərəyan etdiyi, amerikalı gömrük və sərhəd xidmətçilərinin Ermənistana yerləşməyə hazırlaşdığı bir zamanda bu təmasların olması olduqca əhəmiyyətlidir. Nəzərə alaq ki, Rusiya və İran da bölgə üçün təhdid olaraq qalmaqdadırlar.

Onu da xatırladaq ki, Azərbaycan ilə Türkiyə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq, Türkiyənin Qars şəhərində keçiriləcək "Qış təlimi - 2025" birgə təliminə hazırlıq məqsədilə Azərbaycan-Türkiyə dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib.

Göründüyü kimi, iki qardaş ölkə hərbi müttəfiqliyi hər platformada yüksəltməyə çalışırlar. NATO-da generalların görüşü də bədxahlara növbəti mesaj olmalıdır.

Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan polkovniki Şair Ramaldanov "Yeni Müsavat"a şərhində bildirdi ki, Azərbaycan beynəlxalq sülhməramlı missiyalarda aktiv iştirak edir. Ş.Ramaldov vurğuladı ki, Azərbaycanın tanıtımı NATO rəhbərliyindən hər zaman yüksək qiymətlər alıb: "Hətta Əfqanıstanda xidmət edən azərbaycanlı sülhməramlılarla bağlı təlim keçirilmişdi ki, bu gün tədris müəssisələrində istifadə olunur. NATO rəhbərliyi Azərbaycanın Sülh Naminə Tərəfdaşlıq Proqramında iştirakına müsbət baxır. Bu sahədə daimi əlaqələrimiz var. Azərbaycanda sülməramlı tabor da var. Mütəmadi olaraq müxtəlif beynəlxalq qurumlar tərəfindən qiymətləndirilir, təlimlər keçirilir. Bütün bu prosesi, yeni sülhməramlı missiyasını həyata keçirən azərbaycanlı hərbçiləri yüksək qiymət alaraq hər zaman seçiliblər. Digər tərəfdən Azərbaycanın hərbi mütəxəssisləri NATO tərəfindən təşkil olunan digər təlimlərdə və tədbirlərdə iştirak edirlər. 44 günlük Vətən müharibəsində əldə edilən qələbədən sonra Azərbaycan hərbçiləri hər yerdə, xüsusilə NATO tədbirlərində hörmətlə qarşılanırlar, hətta Azərbaycanın təcrübəsindən faydalanmaq istəyini gizlətmirlər. Buna görə də NATO Azərbaycanla sıx əməkdaşlıq edir. Bu, birinci növbədə beynəlxalq proqramlarda Azərbaycan ordusunun iştirakı məqsədini daşıyır. İkincisi isə Azərbaycan həm qabaqcıl texnologiyaların, həm də taktiki yanaşmalarla bağlı yeniliklərin öyrənilməsi üçün bu cür tədbirlərdə iştirak edir".

Ş.Ramaldanov hesab edir ki, Azərbaycan bütün dünya üçün açıq ölkədir. Polkovnikin fikrincə, ölkəmiz hər bir sahədə, o cümlədən hərbi sahədə iştirakını göstərir: "Azərbaycan ordusunun Türkiyə modelinə keçidi ilə bağlı Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev müvafiq tapşırıq verib. Hazırda proses yekun mərhələdədir. Türkiyə NATO üzvüdür. Bu baxımdan NATO tədbirlərində yüksəksəviyyəli şəxslərin, generalların iştirakı vacibdir. Miqyas baxımından regional təhlükəsizlik məsələlərinin həllində NATO rəhbərliyinin Azərbaycanın maraqlarına uyğun olan proqramların ölkəmizdə tətbiq edilməsi, Azərbaycan maraqlarının generallar vasitəsilə çatdırılmasının vacibliyini qeyd etmək olar".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**




# Baydendən gethagetdə Ərdoğana jestin səbəbi...

## Prezident kimi son günlərini keçirən ABŞ lideri Suriyadakı antiterror əməliyyatları ilə bağlı Türkiyəyə tətbiq edilmiş sanksiyaları ləğv etdi; Ankara-Vaşinqton münasibətlərində “yaşıl işıq” - şərh

**ABŞ 2019-cu ildə “Barış Pınarı Hərəkatı”nın ardından Türkiyəyə tətbiq edilən sanksiyaları aradan qaldırıb. “Yeni Müsavat” xəbər verir ki, bu barədə bir neçə günə hakimiyyəti Donald Trampa təhvil verməyə hazırlaşan ABŞ Prezidenti Co Bayden Suriya ilə bağlı cari vəziyyətə dair əlavə düzəlişlərin yer aldığı 14142 saylı yeni fərman imzalayıb. 14 oktyabr 2019-cu ildə o dövrdəki prezident Donald Trampın imzası ilə yayımlanan 13894 saylı fərman yenilənib və əvvəlki mətndə Türkiyə ilə bağlı müddəalar oradan çıxarılıb. Baydenin bu addımı bunu uzun zamandır tələb edən Ankara üçün hüquqi baxımdan mühüm nailiyyət kimi qiymətləndirilib.**

Konqresə göndərdiyi bildirişdə Bayden Suriya ilə bağlı vəziyyətin 2019-cu ildən bəri ciddi şəkildə dəyişdiyini və həmin fərmanda qeyd olunan Türkiyənin hərbi əməliyyatı ilə bağlı gündəmin geridə qaldığını vurğulayaraq aşağıdakı fikirləri bildirib: “Bu fərman 13894 saylı prezident fərmanında istinad edilən bəzi əməliyyatların 5 il əvvəl başa çatmış olduğunu nəzərə alaraq, həmin fərmanda minimum dəyişikliklər edir. Xüsusilə, yenilənmiş fərman çərçivəsində ABŞ Suriyada sülh və təhlükəsizliyi, sabitliyi və ya ərazi bütövlüyünü təhdid edən, ciddi insan hüquqları pozuntularına səbəb olan və ya belə fəaliyyətlərə bilavasitə və ya dolayısı ilə iştirak edən şəxslərə qarşı sanksiyalar tətbiq etmək hüququnu qoruyur”.

ABŞ və Türkiyə müttəfiq ölkələrdir. Hər ikisi NATO üzvüdür. Amma Bayden istiqadər öz müttəfiqinə sanksiyalar tətbiq etmişdi. İki ölkə arasında narazılıq doğuran təkcə Suriya əməliyyatları olmamışdı. Eləcə də “S 400” sistemləri ilə bağlı tərəflərin gərginliyi müşahidə olunurdu. Tramp isə Türkiyəyə yaxınlığı ilə seçilən amerikalı liderdir. Baxmayaraq ki, dövlət katibi postuna namizəd göstərdiyi Marko Rubio antitürk diplomatdır, bununla belə, qardaş ölkənin prezidenti Ərdoğan Trampı seçkilərdə təbrik edərkən ”dostum Tramp" deyə xitab etmişdi. İndisə Bayden gedərayaq daha bir jest edir - bu dəfə Türkiyəyə sanskiyaları aradan qaldırmaqla əslində, Tramp üçün Ankara-Vaşinqton münasibətlərində tramplin yaratmış oldu. Hərçənd, sözügedən fərman Tramp tərəfindən 14 oktyabr 2019-cu ildə imzalanmışdı. Suriyada Əsəd rejiminin devrilməsindən sonra Türkiyənin patronajlığı ilə qurulan keçid hökumətini ABŞ də dəstəkləyir. Dəməşqə gəlmiş Dövlət Departamentinin nümayəndələri keçid hökumətinin lideri Qolaninin başına qoyulan 12 milyon dollarlıq mükafatın ləğv edildiyini açıqlamışdılar. İndisə Baydenin Suriya ilə bağlı Türkiyəyə qoyulan sanksiyaları aradan qaldırması həm Ankaraya jestdir, həm Ərdoğanın bu ərəb ölkəsində siyasətini dəstəkələməsinin təzahürüdür.

“Ən əsası ABŞ Ermənistanla imzaladığı strateji tərəfdaşlıq sənədindən sonra Türkiyə ilə münasibətləri yumşaldır. Çünki Amerika Türkiyəsiz Ermənistanın Avropaya çıxışı olmayacağını yaxşı dərk edir. Ona görə ABŞ Türkiyə ilə əlaqələrinə yenidən baxır ki, tumarladığı İrəvan üçün Ankaradan güzəştlər istəsin. Hazırda Türkiyə-Ermənistan normallaşma prosesini Vaşinqton ikiəlli dəstəkləyir. Bayden ermənipərəst bir siyasətçi olduğu üçün bu detalı da nəzərə alaraq, Türkiyəyə qarşı sankiyaları aradan qaldırıb”, - deyə “Yeni Müsavat”a açıqlamasında ekspert Fuad Əliyev belə şərh etdi. Onun fikrincə, ABŞ və Türkiyənin Suriya məsələsində mövqeləri üst-üstə düşür, sadəcə, YPG ilə bağlı fikir ayrılığı mövcuddur. Trampla Ərdoğan arasında daha isti münasibətlər gözləyən şərhçinin sözlərinə görə, bunun Azərbaycan üçün faydaları var: “Hər halda, sanksiyaların ləğvi təqdirəlayiq addımdır. Halbuki Türkiyə bu təzyiqləri haqq etmirdi. Çünki Suriyanın şimalında olan terrorçuları zərərsizləşdirirdi. Bu gün də həmin əməliyyatlar aparılır. Ərdoğan bəyan edib ki, onların başları əziləcək. Hətta bu günlərdə çağırış etdi ki, Suriyadan əllərinizi çəkin. O, PKK, İŞİD kimi terror qüvvələrinin məhv ediləcəyini anons etdi. Tramp hakimiyyəti Türkiyənin bu addımlarına qarşı getməyəcək”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

## “Kiyevdə olanda qorxdum ki... ” - Bayden

**“2023-cü ilin fevralında Kiyevə elan edilməmiş səfərim zamanı həyatıma sui-qəsd cəhdindən qorxdum”. “Yeni Müsavat” xəbər verir ki, bunu ABŞ Prezidenti Co Bayden MSNBC telekanalına açıqlamasında deyib. “Mən narahat idim ki, Ukraynada rusların nəzarəti altında olan və ya onlarla əməkdaşlıq edən radikal ünsürlər buna cəhd edə bilər. Amma Kiyevə səfərim zamanı məni ən yaxşı adamlar müşayiət edirdi”, - Bayden bildirib.**

❑ **“Yeni Müsavat”**

## Bərzanidən kömək istədilər - “Türkləri dayandırın”



**“Suriya Demokratik Qüvvələri” (SDQ) terror təşkilatının lideri Məzlum Abdi dünən İraq Kürd Muxtariyyətinin paytaxtı Ərbilə səfər edib. Terrorçu burada muxtar bölgənin keçmiş başçısı, Kürdüstan Demokratik Partiyasının (KDP) sədri Məsud Bərzani ilə görüşüb. Bu barədə “Al Arabiya” məlumat yayıb. Nəşr Suriyada hökm sürən həssas dönəmdə baş tutan bu gözlənilməz səfərin suallar doğurduğunu yazıb. SDQ mənbəsi “Al Arabiya”ya deyib ki, Abdi Suriya və İraqda İŞİD-ə qarşı ABŞ-nin rəhbərlik etdiyi beynəlxalq koalisiya rəsmilərinin müşayiəti ilə Ərbilə gəlib. Mənbə onu da bildirib ki, Bərzani Türkiyənin Suriyanın şimal və şərqində SDQ-yə qarşı mümkün əməliyyatlarından öncə təşkilatla Ankara arasında vasitəçi rolunu oynamağa çalışır: “Türkiyə ilə güclü siyasi-iqtisadi əlaqələri olan Bərzaninin partiyasının ABŞ-nin təşviqi ilə oynayacağı potensial vasitəçi rolu Abdinin KDP lideri ilə görüşə aparan ən mühüm amildir”. Məlumatda SDQ liderinin Türkiyənin Suriyanın şimalında mümkün antiterror əməliyyatlarının dayandırılmasına çalışdığına diqqət çəkilib.**

Xatırladaq ki, Suriyanın yeni lideri Əhməd Şəra bundan əvvəl ölkədəki bütün silahlı qruplaşmaların, eləcə də PKK/SDQ/YPG terror təşkilatının ləğv ediləcəyini açıqlayıb. Şəra çıxış yolu kimi silahlı qruplaşmaların Suriyanın rəsmi ordusuna inteqrasiyasını göstərib. Suriya başçısının bəyanatı Türkiyənin tələbindən sonra gəlib. Hər iki tərəf məsələnin dinc yolla həll olunmayacağı təqdirdə hərbi variantdan istifadə ediləcəyini bəyan edib. Həmçinin Ankara bir terror təşkilatı ilə danışıqların qeyri-mümkün olduğunu açıqlayıb.

❑ **“Yeni Müsavat”**

## ABŞ generalı Suriyaya niyə səfər etmişdi?



**ABŞ Mərkəzi Qüvvələr Komandanlığının (CENTCOM) komandiri general Maykl Erik Kurillanın Suriyada PYD/YPG terror təşkilatının üzvləri ilə görüşdüyü ortaya çıxıb. Bu barədə CENTCOM-un açıqlamasında qeyd olunur. Kurilla Suriyaya səfər edib və bölgədəki amerikalı əsgərlərlə yanaşı, “Suriya Demokratik Qüvvələri” adı altında fəaliyyət göstərən PYD/YPG terrorçuları ilə də görüşüb. Rəsmi açıqlamaya görə, bu görüşün məqsədi İŞİD-in yenidən canlanmasına qarşı mübarizə aparmaqdır. Kurilla Suriyanın şimal-şərqində yerləşən 40 mindən çox insanın olduğu düşərgələrə də baş çəkib. Bu düşərgələrdə qalan insanların İŞİD-lə bağlantısının olduğu deyildir. Bununla yanaşı, amerikalı general İŞİD-ə qoşulmuş və həbs edilmiş 50 ölkədən 9 mindən çox məhbusun qaldığı həbsxanaları da ziyarət edib. Kurilan bildirib ki, İŞİD-in həbs edilən əcnəbi üzvlərinin ölkələrinə qayıdışını təmin etmək məsələsi müzakirə olunur.**

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 10 (8620) 18 yanvar 2025

# Azərbaycan sərhədində təhlükəli hazırlıq - “İran Ermənistandan vurulacaq...”

## Fikrət Yusifov: “İran kürəyində xain erməni xəncərini görüb təəccüblənməməlidir”
## Sona Əliyeva: “Tehrandakı molla rejimi “bacı xəyanəti”nin altından çıxmağa çalışır”

**“İran hazırda 1979-cu ildən bəri ən zəif vəziyyətdədir. Suriyada da Əsəd rejimi süqut etdi. İndi Amerikanın yeni administrasiyası üçün böyük fürsət yaranıb”. Bunu Ağ Evin milli təhlükəsizlik müşaviri Ceyk Sallivan deyib.**

Sallivan son günlərini yaşayan Bayden hökumətinin rəsmisidir. Ancaq məsələ ondadır ki, ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp İrana qarşı daha sərt mövqeyi ilə tanınır. Hətta təzə administrasiyanın İrana zərbə planının artıq hazır olduğu deyilir.

Bu fonda, yanvarın 17-də Moskvada İranla Rusiya arasında strateji tərəfdaşlıq haqda sazişin imzalanması diqqət çəkir. "The Times" qəzeti bu xüsusda yazıb ki, İran nüvə proqramı və hava hücumundan müdafiə sistemləri ilə bağlı yardım almaq üçün Rusiya ilə gizli danışıqlar aparır.

Bildirilir ki, İranın ali dini lideri Xameneyinin baş müşaviri Əli Laricaninin Moskvaya gizli uçuşlar etməsi İran-Rusiya münasibətlərinin dərinləşməsindən və bir-birinə təsirinin artmasından xəbər verir.




Qərb qorxur ki, Moskva “İranın nüvə proqramı ilə bağlı əvvəllər müəyyən edilmiş qırmızı xətləri keçməyə hazırdır, çünki Rusiya raket və dronların tədarükündə İrandan asılıdır”. Mənbələrə görə, Tehran “Hizbullah”ı yenidən silahlandırmaq üçün Kremldən maddi-texniki yardım da istəyib.

Yanvarın 14-də Vaşinqtonda ABŞ-Ermənistan strateji tərəfdaşlıq xartiyasının imzalanması isə İrana hücum mövzusunu daha da aktuallaşdırıb. Çünki sənəd Ermənistanın sərhədinə Amerikanın “sərhəd məsələləri ilə məşğul olacaq xüsusi mühafizə qrupunun göndərilməsi”ni də nəzərdə tutur. Bəzi təhlilçilərə görə, sərhəddəki AB missiyasından fərqli olaraq, ABŞ missiyası patrul xidmətindən çox erməni hərbi birləşmələrinin əməliyyatlarının planlaşdırılması və koordinasiya edilməsində iştirak edə bilər.

Erməni politoloq Arman Abovyan isə ehtimal edir ki, İrana hücuma hazırlaşan ABŞ bu yolla öz qüvvələrini Ermənistana göndərəcək. “ABŞ dövlət katibi bildirib ki, Vaşinqton gələn həftə Ermənistana sərhəd təhlükəsizliyi məsələləri ilə məşğul olacaq xüsusi qrup göndərəcək. Yeni gələn həftədən ABŞ xüsusi xidmət orqanları Ermənistan sərhədində rəsmən işə başlayacaqlar. Beynimizə bir az güc vermək və bu reallığı düzəltmək vaxtı çatıb: onlar İrana hücuma hazırlaşan ölkənin xüsusi xidmət orqanlarıdır. İndi gəlin birlikdə düşünək, iranlılar Amerika hərbi agentlərinin öz sərhədlərinin ən mühüm hissəsində peyda olacağına necə reaksiya verəcəklər?” - Abovyan bildirib.

Digər erməni ekspert Ayk Nahapetyan hesab edir ki, Vaşinqtonda imzalanan sənədlə Paşinyan artıq İranın əleyhinə öz seçimini edib: “Şübhəsiz ki, o və qrupu İrana qarşı müharibə üçün Ermənistanın bütün resurslarını səfərbər edəcək. İran isə yaxşı silahlanıb, ballistik və uzaqmənzilli hipersəs raketlərinə malikdir. İran İraq deyil. İranı işğal etmək və orada quru hərbi əməliyyat keçirmək üçün 1 milyon əsgər lazımdır və bu, 5-6 ay çəkəcək. Blinken ”Gələn həftə Ermənistana xüsusi sərhəd mühafizə qrupu gedəcək" deyərkən komissiyanın bu işləri sürətləndirmək üçün Ermənistana gələcəyini nəzərdə tutub".

Nahapetyana görə, Paşinyan Zəngəzurun qapılarını ilk növbədə hərbi baxımdan açıb və rus qoşunlarını da oradan çıxarması təsadüfi deyil.

Bəs ABŞ-ın xüsusi sərhəd-mühafizə qrupu (hərbçi-xəfiyyələr) Azərbaycanla sərhəddə də yerləşəcəkmi? Ermənistan xarici qüvvələrin poliqonunamı çevrilir?

Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifov “Yeni Müsavat”a bildirdi ki, Ermənistanın ABŞ-la bağladığı strateji tərəfdaşlıq sazişi bölgədə ciddi narahatlıq yaradır. Bu sazişlə tərəflərin qarşıya qoyduqları hədəflər açıq-aydın ortadadır. Ermənistan indi də Birləşmiş Ştatların əlində bir forposta - əl buyruğuna çevrilir. Ermənistanın Co Bayden hakimiyyəti dövründə ABŞ-la tələm-tələsik belə bir saziş bağlaması hələ o sazişin tam gücü ilə işləyəcəyi demək deyildir. Bu sazişin necə işləyəcəyini bir neçə gündən sonra Donald Tramp müəyyən edəcək.

İrana qarşı ABŞ-ın hər hansı bir hərbi əməliyyatı üçün Ermənistan ərazisindən istifadə etməsi mühüm şərt deyil. Çünki ABŞ-ın İran ətrafında yerləşən onlarla hərbi bazaları mövcuddur. Ermənistanla strateji tərəfdaşlıq sazişi ABŞ-dan daha çox Nikol Paşinyan hakimiyyətinin təşəbbüsüdür. İndiki erməni hökuməti Rusiya ilə gərginləşdirməkdə olduğu prosesin sonunun necə qurtaracağından çox əndişəlidir. Rusiyanın hissləri ilə bu qədər sərt oynamaq Ermənistana yaxşı heç nə vəd etmir. Nikol Paşinyan hökuməti bunu yaxşı anlayır və elə bu səbəbdən də ölkəsinin Rusiyanın mümkün olacaq basqılarından qorunması üçün öncədən tədbirlər almağa çalışır. Ancaq hesab edirəm ki, sonda Ermənistan Rusiya ilə ABŞ arasında siyasi alver predmeti kimi yenidən tam olaraq Rusiyanın yedəyində qalacaqdır.

Zatən bu gün Ermənistan nə qədər çabalar göstərsə də, Rusiyanın ovcunun içindədir. Ermənistanın xarici ticarət dövriyyəsinin 40%-dən çoxu Rusiyanın payına düşür. Rusiyanın Ermənistan ərazisində hərbi bazaları mövcuddur, rus hərbçilər Ermənistanın sərhədlərini qoruyur və Rusiya Ermənistanda iqtisadiyyatın böyük bir hissəsinə payçı kimi nəzarət edir. Bu sıraya Ermənistana Rusiyadan ucuz qiymətə satılan enerji resurslarını da əlavə etsək, o halda Ermənistanın Rusiyanın caynağında nə qədər möhkəm oturduğunu asanlıqla görə bilərik. Rusiya hələlik susur - gözləyir. İndi Ermənistan Rusiyanın müəyyən etdiyi qırmızı xəttin lap kənarına qədər gəlib çatıb, onu keçəndə nələr olacaq? Düşünürəm buna çox az qalıb.

İran isə bu gün kürəyində xain erməni xəncərini görüb heç də təəccüblənməməlidir. Ermənilərlə qardaşlıq İran dövlətinin öz seçimidir. İran hakimiyyətinin başında dayananlar tarixdə ermənilərin sığındıqları bütün dövlətlərə necə xəyanət etdiklərinin fərqində olmalı və bundan nəticə çıxartmalı idilər. Ancaq İran nə etdi? Torpaqlarımızın otuz illik erməni işğalı dövründə blokada vəziyyətində olan Ermənistana hər cür hərbi və mülki yardımlar etdi və bununla da erməni işğalının uzanmasına şərait yaratdı. Bu gün İran çox haqlı olaraq kürəyində erməni xəncəri görür..."

Sabiq deputat, siyasi təhlilçi Sona Əliyeva İranın bunu Ermənistana bağışlamayacağını diqqətimizə çatdırdı: “Birləşmiş Ştatlarla Ermənistan arasında imzalanan xartiyanın müddəalarına baxanda görürük ki, bu müttəfiqlik sənədi daha çox Tehran və Moskva üçün təhlükə saçır. Ermənistan İran və Rusiyaya arxadan elə bir zərbə vurub ki, indi nə rus, nə də fars diplomatiyası onun altından çıxacaq. Bakı üçün Vaşinqtonla İrəvan arasında imzalanan sənədin heç bir təhlükəsi yoxdur. Çünki biz heç kimin ərazisinə iddialı deyilik. Zəngəzur dəhlizinin açılmasını istəyirik və bu dəhliz açılacaq. Bunun da səbəbi sadədir, Zəngəzur dəhlizinin açılması ilə bağlı İrəvanla Bakı arasında hər hansı problem yoxdur. Dəhlizin açılmasına yeganə maneə Rusiya ilə Ermənistan arasındakı anlaşılmazlıq sindromu idi. Kreml çalışırdı ki, dəhlizin təhlükəsizliyini rus hərbçilər həyata keçirsinlər. İndi adıçəkilən bölgədə Rusiya hərbçiləri yoxdur, onlar Gümrüdəki 102-ci bazaya çəkiliblər. Deməli, Zəngəzur dəhlizinin açılması ilə bağlı hər hansı bir əngəl də qalmayıb. ABŞ-ın Ermənistanda baza açması məsələsi hələ böyük sual altındadır. Rusiya buna imkan verəcəkmi? Əgər Moskva belə bir bazanın Ermənistanda açılmasına ”hə" deyərsə, o zaman Kreml Güney Qafqazı itirməsi ilə barışacaq. ABŞ-nin Ermənistan ərazilərində belə bir baza yaratmaqda əsas məqsədlərindən biri də İranın blokadasını tamamlamaqdır. Məhz bundan sonra ABŞ-nin İrana hücumu reallaşacaq. İndi Tehrandakı molla rejimi “bacı xəyanəti”nin altından çıxmağa çalışır. Düşünürəm ki, İran diplomatiyası vəziyyətin daha da kəskinləşəcəyi halda bunu Ermənistana bağışlamayacaq".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**



## Qəzzada atəşkəs razılaşması bazar günü qüvvəyə minəcək

**İsrail və HAMAS arasında Atəşkəs razılaşması bazar günü qüvvəyə minəcək. APA xəbər verir ki, bu barədə “Kann” məlumat yayıb. Qeyd edilib ki, ilk girov mübadiləsi bazar günü yerli vaxtla saat 16:00-da baş tutacaq.**

Yanvarın 17-də isə İsrail Təhlükəsizlik Kabineti Qəzzada atəşkəs və girovların azad edilməsi razılaşması ilə bağlı səsvermə üçün iclas keçirilib.

# Bal adı ilə satılan şərbətlər - keyfiyyət problemi

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən ölkədə qida təhlükəsizliyinin təmin edilməsi məqsədilə hazırlanan Multimonitorinq Planının icrası davam etdirilir. Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən verilən məlumata görə, ticarət şəbəkələrində satılan bal məhsullarının təhlükəsizlik və keyfiyyət göstəricilərini müəyyən etmək üçün 50 bal məhsulundan nümunələr götürülərək müayinələrə cəlb olunub.**

Nümunələrin sınaq nəticəsinə əsasən 23 bal məhsulunda hər hansı uyğunsuzluq aşkarlanmayıb, 9 istehsalçıya məxsus 27 bal məhsulu partiyasında uyğunsuzluqlar müəyyən edilib. Aşkar edilmiş uyğunsuzluqlarla bağlı istehsalçı müəssisələrdə plandandankənar yoxlama aparılıb və məhsul partiyalarının ticarət şəbəkələrindən geri çağırılması ilə bağlı məhdudlaşdırıcı qərarlar qəbul olunub. Eyni zamanda, həmin müəssisələrdən ikisində məhsulların etiket məlumatlarında nöqsan aşkar edildiyinə görə sahibkarlar inzibati məsuliyyətə cəlb edilib.

Aparılan nəzarət tədbirləri zamanı müvafiq rəy əsasında istehlaka yararsız 1560 kiloqram bal məhsulu qanunvericiliyə uyğun olaraq utilizasiya və məhv edilib. Bu sahədə araşdırmalar davam etdirilir.

Sirr deyil ki, ölkədə təmiz bal adı altında satılan məhsullar bir çox hallarda standartlardan uzaq olur. Hərçənd dadına əsasən onları keyfiyyətlidən ayırd etmək asan deyil.

Bəs balın təmizliyinə necə əmin olmalı? Ən etibarlı üsulu hansıdır? Bazardan, yoxsa marketdən almaq daha uyğundur? İnflyasiyanı da nəzərə alsaq, hazırda yaxşı balın bir kilosu neçəyə olmalıdır?

## Eyyub Hüseynov: "Təbii bal istehsalçıları bu cür süni balları ayırd edə bilmirlər"
## Seyfəddin Əsəd: "Balı qəbul edəndə şəkər kəskin qalxır, demək, tərkibində şəkər tozu

İstehlakçı hüquqlarının müdafiəçisi Eyyub Hüseynov mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, ölkənin əmtəə bazarında bal sektorunda problemlər yaşanır: "Çox yaxşı haldır ki, AQTA bunların monitorinqini etməyə. Qeyd edim ki, bizim ofisimizdə nümunələr var. Balı Türkiyədən gətirilmiş xüsusi tozlar (dad verici, qoxu verici), xüsusi qablaşdırma materialları, şəkərlə, eləcə də müəyyən temperatur və texnologiya ilə hazırlanaraq bazara çıxarılır. Üzərində çəkisi və digər göstəricilər göstərilir. Qida Təhlükəsizliyi Agentliyi balın böyük bir partiyasını ifşa edib.

Çox yaxşı haldır, lakin yenə də bu cür hallar davam edir. Bu, ifşa olunan qadın bizim ofisimizə gəlmişdi. O dedi ki, "Mən bunu Rusiyada öyrənmişəm, orada uzun müddət bizneslə məşğul olmuşam, burada da bunu etmək istədim. Nəhayət Azərbaycanda ifşa olundum". Çox yaxşı haldır.

Onlar arı ilə heç bir əlaqəsi olmayan maddələrdən balı hazırlayırlar. Bu, elə də asan bir məsələ deyil. Təbii bal istehsalçıları bu cür süni balları ayırd edə bilmirlər. Bunun araşdırılması isə o qədər də sadə deyil. Yalnız mükəmməl laboratoriya vasitəsi ilə arının ifraz etdiyi xüsusi maddələrin analizi aparılaraq balın təbiiliyi müəyyən olunur.

Digər primitiv yollar da mövcuddur, lakin onlar tam dəqiq nəticə vermir. Bu cür fırıldaqçılığın qarşısını almaq üçün ciddi nəzarət və keyfiyyət testləri tələb olunur. Bal bazarı hazırda çox çirklənmiş və xaotik vəziyyətdədir. Dövlət dəstəyi ilə necə ildir ki, Bal Assosiasiyaları yaradılıb. Mən bal assosiasiyasının rəhbərliyinə təkliflə müraciət etmişəm ki, gəlin əməkdaşlıq edək. Tam təmənasız şəkildə bu sahədə kömək etməyə hazıram. Lakin təəssüflər olsun ki, mənə əsasən məsafədən təşəkkür bildirir, işbirliyinə real addım atmırlar. Nə qədər ki, cəmiyyətdə müəyyən məsələlər üçün haqq-ədalət naminə maraqlı tərəflərin inteqrasiyası baş vermir, həmçinin bu inteqrasiya kütləvi informasiya vasitələri ilə sinxron və əlaqəli həyata keçirilmir, bazarın müxtəlif sahələrində olduğu kimi, bal sektorunda da problemlər davam edəcəkdir.

Təmiz balın bazardakı qiyməti xeyli yüksək olmalıdır. Misal üçün, qohumuma bu yaxınlarda Filippindən bal gətirdim. O tərifləyir və deyir ki, bu bal yaxşıdır. Mən özüm də o balı yoxlayacağam. İnsanlar tez-tez bu kimi məhsulları uzaq ölkələrdən gətirirlər. Lakin o ölkələrdən gətirilən balların da necə hazırlandığı məlum deyil. Başqa ölkələrdə də bu cür problemlər yaşanır. Lakin birmənalı şəkildə insanlar onlayn yolla bal almasınlar. Çünki aldatma hallarının əksəriyyəti onlayn satışlarda baş verir. Aldatma təkcə kiçik ticarətdə deyil, hətta avtomobillərin arxasında satılan yerlərdə də, marketlərdə də ola bilər. Lakin süni bal, yəni arı ilə heç bir əlaqəsi olmayan bal üzərindən arı, şanı şəkli götürülmədən lidir. Üzərinə süni bal yazılmalı, tərkibinə nə qatılıbsa qeyd edilməlidir".

Bəs baldan kim, nə qədər gündə istifadə edə bilər? Necə yaşdan?

Tanınmış həkim, xalq təbabəti üzrə uzman Seyfəddin Əsəd mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bölüşüb: "Bal Allahın insana verdiyi ən qiymətli qidadır. Yeganə məhsuldur ki, balın itkisi yoxdur. Keçmişdə, əsasən də Qərbi Azərbaycanda uşaqlar doğulanda göbəyinin mayalanmasını balla edirdilər. Balı hamı yeyə bilər, o şərtlə ki onun bala reaksiyası olmasın. Hər bir orqanizmin qəbul etdiyi həcm var. Qan azlığı olanlar balı çox qəbul etməlidirlər. Yalnız bala həssaslıq olanda çox qəbul etmək olmaz. Misal üçün, mən özüm hər səhər ılıq suya bir xörək qaşığı qatıram və limon şirəsi sıxıb qəbul edirəm. Bu həm arıqlamağa, həm də maddələr mübadiləsinin yaxşılaşmasına kömək edir. Bundan başqa, çay içəndə də baldan istifadə edilə bilər. Balı qaynar suya qatmaq olmaz, soyuducuda saxlamaq olmaz. Bal yaraların müalicəsində effektli olur. Qan artırıcıdır. Virusların, faringitin müalicəsində istifadə olunur. Hər iki saatdan bir balı ağızda saxlamaq və sormaqla ağız boşluğunu infeksiyalardan, virusdan təmizləmək olur. Bundan başqa, bal səs tellərinə soyuq olanda, bronxit zamanı çox yaxşı effekt verir. Bu zaman da suya həll edib qəbul etmək lazımdır. Bundan başqa, balın digər funksiyası da virus qovucu xüsusiyyəti də var və immuniteti qaldırır. Misal üçün, hər gün bal qəbul edən adamlar yoluxucu xəstəliklərə yoluxmur. Mən şəkərli diabet xəstələrinə bal məsləhət görmürəm. Birincisi, şəkərin dərəcəsi müəyyən edilməlidir. Şəkər xəstələrinə isə ona görə olmaz ki, balın əsl olması şübhə doğurur. Təəssüf ki, satış üçün olan balların hamısında qatqılar var. Bu sözümə görə məni qınayacaqlar. Amma böyük əksəriyyətinin biznes marağı var, orada şəkər tozu qatqıları olduğu üçün ziyan edir. Onun verdiyi xeyirdənsə, onu qəbul etməmək daha məqsədəuyğundur. Çünki mən uzun illər təcrübəmdə yoxlamışam ki, balı qəbul edəndə şəkər kəskin qalxır. Demək, onun tərkibində şəkər tozu qatqıları var".




❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**




## "Yaşa görə müavinətin artırılması məqsədəuyğundur" - deputat

**"Yaşa görə müavinət pensiya deyil və müavinət olduğuna görə indeksləşdirməyə cəlb olunmur. İndeksləşdirməyə bütün növ əmək pensiyaları cəlb edilir. Bu, yaşa görə əmək pensiyası, ailə başçısını itirməyə görə əmək pensiyası və eləcə də əlilliyə görə əmək pensiyası alan vətəndaşlarımızdır. Pensiya indeksləşdirilməsi əmək pensiyası alan vətəndaşlarımıza şamil olunur".**

Bu sözləri millət vəkili Vüqar Bayramov bildirib.

Onun sözlərinə görə, yaşa görə müavinət bütövlükdə sosial müavinətlərin bir növü kimi çıxış edir:

"Cənab Prezident tərəfindən sosial müavinətlər və təqaüdlərin artırılması ilə bağlı Nazirlər Kabinetinə tapşırıq verilib. Nazirlər Kabineti tərəfindən artıq bu istiqamətdə təkliflərin hazırlanması həyata keçirilir.

Məhz həmin təkliflərin hazırlanması, maliyyə əsaslandırılmasının aparılması üçün Nazirlər Kabinetinə üç ay zaman verilib. Gözlənilir ki, mart ayının ortalarında sosial müavinətlər, o cümlədən qeyd etdiyimiz istiqamətlər, eləcə də təqaüdlərlə bağlı təkliflər Nazirlər Kabineti tərəfindən təqdim olunacaq. Təbii ki, daha sonra hansı müavinətlərdə və nə qədər fəiz artımın olacağı ilə bağlı rəqəmlər təqdim olunacaq.

Biz yaşa görə müavinətin artırılması ilə bağlı təkliflərimizi təqdim etmişik. Xüsusən nəzərə alınmalıdır ki, minimum pensiya 14,3 faiz artıb, fevral ayında 280 manatdan 320 manata çatıb. Ona görə də yaşa görə müavinətin artırılması da məqsədəuyğundur. Nazirlər Kabineti tərəfindən təkrar paket təqdim olunduqdan sonra müavinətlərlə bağlı tam artım faizləri təqdim oluna biləcək"./baku.ws

YENİ MÜSAVAT
N 10 (8620) 18 yanvar 2025

# İsrail HƏMAS-la anlaşdı, qalib isə Trampdır - Yaxın Şərq savaşı bitdimi

## Azər Hüseynov: "Münaqişənin siyasi həlli olmadan onun tam sona çatması mümkün deyil"
## Şahin Cəfərli: "İsrail və HAMAS arasındakı anlaşmaya baxanda kimin qalib, kimin məğlub olduğu..."

**Yanvarın 16-da İsraillə HƏMAS arasında əsir və girovların dəyişdirilməsi də daxil, tarixi anlaşma əldə olundu. Hər iki tərəf, həmçinin Azərbaycan və Türkiyə bu anlaşmanı alqışladı.**

Müqavilə üç mərhələdə həyata keçiriləcək. Altı həftə davam edəcək birinci mərhələdə İsrail qoşunların anklavdan tədricən çıxarılmasına başlayacaq. HƏMAS bütün qadınlar, uşaqlar, 55 yaşdan yuxarı kişilər və iki ABŞ vətəndaşı da daxil olmaqla 33 nəfəri azad edəcək.

Birinci mərhələnin başlamasından sonra on altıncı gündə sazişin ikinci mərhələsinin həyata keçirilməsi üzrə danışıqlara başlanılacaq. Onun çərçivəsində qalan israilli məhbusların azad edilməsi və daimi atəşkəs nəzərdə tutulur. İsrail qoşunlarını tamamilə çıxaracaq, həmçinin mindən çox fələstinli məhbusu azad edəcək. Üçüncü mərhələdə tərəflər ölənlərin cəsədlərini dəyişdirəcək, Misir, Qətər və BMT-nin nəzarəti altında olan Qəzza zolağında yenidənqurma işlərinə başlanacaq.



HƏMAS və İsrail arasında davam edən gərginlik və hərbi əməliyyatların qarşısını almaq üçün bu razılaşma böyük əhəmiyyət kəsb edir. Razılaşmanın icrası bölgədə humanitar vəziyyəti yüngülləşdirə və tərəflər arasında müvəqqəti sabitliyə yol aça bilər. Bununla belə, razılaşmanın uzunmüddətli təsirləri və hər iki tərəfin öhdəlikləri yerinə yetirməsi prosesi hələ də beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir.

Sənədin imzalanmasında ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın xüsusi rolu olduğu bildirilir. Artıq İsrail baş naziri Benyamin Netanyahu Trampa telefon açaraq ona təşəkkür edib.

Yanvarın 20-də Amerikada yenidən AĞ Evə dönən Donald Trampın andiçmə mərasimi baş tutacaq.

O zaman demək olarmı ki, Tramp vəzifəsinə Yaxın Şərqə sülh gətirməklə başlayır? İsrail-Həmas müharibəsi bitdimi? Bitdisə, qalib kimdir? Bu, Tramp dönəmində diqqəti və resursları daha çox İrana yönəltmək üçün əldə olunan bir anlaşmamı? Güney Qafqaz regionuna, Azərbaycana, Türkiyə-İsrail münasibətlərinə mümkün təsirləri nə olacaq?

AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynovun sözlərinə görə, İsrail-HƏMAS münaqişəsinin qalibinə dair bu suala birmənalı cavab vermək çətindir: "İsrail ordusu dünyanın ən güclü ordularından biri hesab olunsa da, HƏMAS-ın asiğmetrik mübarizə taktikası hərbi əməliyyatlarda ona ciddi çətinliklər yaratdı. İsrailin hərbi hava qüvvələrinin üstünlüyünə baxmayaraq, yerdə baş verən döyüşlərdə hərbi məqsədlərin tam həyata keçirilməsi mümkün olmadı. Bu münaqişə bir daha göstərdi ki, müasir hərbi texnologiyaların üstünlüyü qeyri-rəsmi və mobil qruplara qarşı savaşda hər zaman qələbəni təmin etmir. Psixoloji davamlılıq və əraziyə bələd olmaq hərbi proseslərdə önəmli təsir vasitəsi kimi çıxış edir.

HƏMAS ilə savaş zamanı mülki əhalinin itkiləri İsrailin beynəlxalq imicinə ciddi təsir göstərib. Bu vəziyyət İsrail daxilində də ciddi siyasi böhrana səbəb olmuş, müxtəlif siyasi partiyalar arasında qarşıdurmaları gücləndirib. ABŞ-ın seçilmiş prezidenti Donald Trampın bu münaqişənin həlli ilə bağlı fəaliyyəti regionda hərbi eskalasiyanı dayandırmaq və əsas oyunçular arasında, xüsusilə Türkiyənin də iştirakı ilə, bir status-kvonun təmin olunmasına yönəlib. Ola bilər ki, növbəti mərhələdə Fəth təşkilatının Qəzzada hakimiyyətə gətirilməsi ilə bağlı danışıqlar başlansın. Bu, həmçinin ABŞ-ın bölgədə sülhün təmin edilməsində daha geniş təsir gücünə sahib olmaq istəyini əks etdirir".

Siyasi şərhçi onu da vurğuladı ki, İranın Yaxın Şərqdəki təsir gücü, xüsusilə də Fələstin məsələsindəki mövqeyi ABŞ-ın əsas prioritetlərindən biri olub: "Azərbaycan və Türkiyənin bu məsələlərdəki birgə fəaliyyəti isə hər iki ölkənin müsəlman dünyasında nüfuzunun artmasına müsbət təsir göstərə bilər. Azərbaycanın bu münaqişənin dayanması baş verərsə, dağıdılmış ərazilərin bərpası və yenidənqurma proseslərində Türkiyə ilə birlikdə iştirak etməsi mümkündür. Bu, Azərbaycanın beynəlxalq səviyyədə humanitar məsələlərdə fəallığını artıracaq və müsəlman dünyasında daha güclü nüfuz qazanmasına səbəb olacaqdır.

Digər tərəfdən, Suriyada yeni hakimiyyətin verdiyi mesajlar və regionda ehtimal edilən yeni iqtisadi layihələr münaqişənin aktiv fazasının dayandırılmasında bir çox tərəfi bir araya gətirə bilər. Məsələn, Qətərdən Suriya vasitəsilə Türkiyədən keçərək Avropaya qaz nəqlinin başlanması üçün danışıqlar artıq gedir. Bu xəttin təhlükəsizliyinin təmin olunması layihədə iştirak edən hər bir tərəf, xüsusilə transmilli iqtisadi oyunçular üçün vacibdir.

Münaqişənin siyasi həlli olmadan onun tam sona çatması mümkün deyil. Atəşkəs müvəqqəti bir tədbir olsa da, onun davamlılığı daxili və xarici amillərdən asılıdır. Hər bir halda dinindən, dilindən, rəngindən asılı olamayaraq xalqların əminamanlığı ümumbəşəri bir prinsipdir. Bu prinsipin reallaşdırılması Fələstin xalqının yaşadığı faciələrin sonlanmasına kömək edə bilər. Bütün hallarda silahların durması, insanların evlərinə dönməsi önəmlidir.

Sonda Azərbaycanın dövlət başçısı İlham Əliyevin də Azərbaycan televiziyalarına verdiyi son müsahibəsində qeyd etdiyi kimi, dünya yeni düzənə doğru gedir. Bu yeni düzəndə bütün mədəniyyətlərin, o cümlədən də bizim tərkib hissəsi olduğumuz müsəlman dünyasının sülh və rifah halında yaşaması arzu ediləndir. Bunun üçün isə müsəlman dünyasının iqtisadi, insani, mədəni inkişafının təmin edilməsi, humanitar rifahının yüksəlməsi zəruridir. Rifahın yüksəlməsi və dirçəliş isə ancaq sülhdən və əmin amanlıqdan rassional istifadə etməklə mümkündür".

Politoloq Şahin Cəfərlinin bu savaşın yekunları ilə bağlı feysbuq hesabında paylaşdığı status xüsusi diqqət çəkir: "İsrail və HƏMAS arasındakı anlaşmaya baxanda kimin qalib, kimin məğlub olduğu anlaşılmır. Hətta razılaşmanın HƏMAS-ın lehinə olduğunu söyləmək yanlış olmaz.

Birinci mərhələdə (42 gün ərzində) cəmi 33 girovun əvəzində İsrail 1200-dən çox fələstinlini öz həbsxanalarından buraxacaq. Bunların içərisində terrorçuluqda və digər ağır cinayətlərdə ittiham olunan, məhkum edilən xeyli adam var. İsrail ordusu Qəzza daxilində hazırkı mövqelərindən 700 metr geri çəkiləcək, Misirlə sərhəddəki Rəfah nəzarət-buraxılış məntəqəsi açılacaq, humanitar yüklər əvvəlkindən artıq həcmdə Qəzzaya daxil olacaq.

İkinci mərhələdə isə digər girovların buraxılması müqabilində İsrail ordusunun tamamilə Qəzzadan çıxması nəzərdə tutulur. Bu, o deməkdir ki, HƏMAS öz mövcudiyyətini qorumaq və yenidən güclənmək imkanı qazanır. Anlaşma İsrail hakim koalisiyası daxilində ultraradikal və dindar sionistlərin (milli təhlükəsizlik naziri Ben Qvir və maliyyə naziri Smotriç) kəskin etirazına səbəb olub. Ben Qvirin istefaya hazırlaşdığı barədə xəbərlər var, Smotriç də partiyasının hökuməti tərk edə biləcəyini deyib.

Bayden administrasiyası tərəfindən hazırlanan razılaşmanın qəbulunda Trampın ciddi rolu oldu. O, andiçmədən əvvəl anlaşma əldə olunması üçün Netanyahuya təzyiq göstərdi və HƏMAS-a ultimatum verdi. Ənənəvi diplomatiyaya qıcığı olan Trampın sövdələşmə əldə etmə metodu budur. Demokratlar kimi uzun-uzadı, nəticəsiz görüşlər və telefon danışıqları aparmaq bu eqosentrik adamın stili deyil.

Yeri gəlmişkən, Azərbaycan-Ermənistan sülh prosesinə də Tramp tərəfindən analoji münasibət görə bilərik. Bunu respublikaçı Konqres üzvü, Helsinki Komissiyasının sədri Co Uilson da deyib".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**




## Kurskun Ukraynanın nəzarətində olan ərazilərinin 63,2 faizi geri alınıb

**Rusiya ordusu Kurskun Ukraynanın hərbi qüvvələrinin nəzarətində olan ərazilərinin 63,2 faizini azad edib. APA-nın TASS-a istinadən xəbərinə görə, bu barədə Rusiyanın Müdafiə Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, bütün istiqamətlərdən edilən həmlə nəticəsində qarşı tərəf itkilər verərək, geri çəkilir: "İndiyədək Kurskun qarşı tərəfin nəzarətində olan 1268 kv. km-lik ərazisinin 63,2 faizi (801 kv. km) hissəsi azad edilib".

YENİ MÜSAVAT
N 10 (8620) 18 yanvar 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

# Rəqəmsal hökumət quruculuğu sahəsində yeni mərhələ - uğurlu olacaqmı?

## Ekspert deyir ki, innovasiyalar və startap ekosistemin inkişafı, İKT güzəştlərdən effektiv istifadə ilə bağlı çatışmazlıqlar aradan qalxsa, ciddi nailiyyətlər əldə edilə bilər

**2025-ci ilin ilk həftələri Azərbaycanda rəqəmsal transformasiya, rəqəmsal hökumət quruculuğu prosesinin sürətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edən bir sıra addımlar atılıb. Belə ki, yanvarın 10-da Prezident İlham Əliyev tərəfindən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası, həmçinin "Rəqəmsal ekologiya" informasiya sistemi haqqında Əsasnamə, "Milli Məkan Məlumatları" informasiya sistemi haqqında Əsasnamə, yanvarın 16-da Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası təsdiqlənib. Konsepsiyaya əsasən, ölkə səviyyəsində rəqəmsal ekosistem üzrə rəqəmsal hökumət arxitekturası qurulacaq.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Dövlət Təhlükəsizliyi Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və aidiyyəti qurumlarla birlikdə 2025-2027-ci illərdə bunu təmin etməlidir. Bunun üçün Rəqəmsal hökumət arxitekturasının formalaşdırılması üzrə qurumlararası ixtisaslaşmış işçi qruplar yaradılacaq və fəaliyyətə başlayacaq

Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüzün fikrincə, atılan addımlar rəqəmsal hökumət quruculuğu sahəsində böyük müsbət nəticələr verə bilər: "Bir neçə gün öncə Prezidentin fərmanı ilə RİNN tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası yeni redaksiyada təsdiqlənmişdi. Xatırladıram ki, uzun illər bu Qaydalar mövcud olsa da ondan effektiv istifadə etmək mümkün olmamışdı. Odur ki, indiyədək İRİA tərəfindən startaplara, xüsusilə də ilkin inkişaf dövrü keçirən startaplara, yaxud hansısa bir innovativ, texnoloji layihələrə, rəqəmsal layihələrə investisiya ayırmaq, qrantlar vermək, maliyyə dəstəyi göstərməklə bağlı sistemli addımlar olmayıb. İndi isə görünən odur ki, Nazirlik bu sektora böyük vəsaitlər yatırmaq və bu vəsaitlərdən effektiv istifadə etmək niyyətindədir.

Ötən il rəqəmsal transformasiya, rəqəmsal hökumət quruculuğu və bəzi çatışmazlıqlar olsa da İT kadrların hazırlanması sahəsi də müəyyən irəliləyişlərlə yadda qaldı. Ən ciddi çatışmazlıqlar innovasiyalar və startap ekosistemin inkişafı, İKT güzəştlərdən effektiv istifadə ilə bağlı olub. Qlobal hesabatlarda da ötən il bu sektorda vəziyyətin acınacaqlı olduğu qeyd edilib. Beynəlxalq reytinqlərlə bağlı komissiyanın son toplantılarından görünürdü ki, İRİA da bunun fərqindədir və vəziyyətdən çıxış yolu ilə bağlı nəsə hazırlayırdılar. Həmin nəsənin



biri, vəsaitlərdən istifadə ilə bağlı qaydalar artıq təsdiqləndi".

Ekspert bildirir ki, Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin əmri ilə Fərid Osmanovun İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İdarə Heyətinin sədri təyin edilməsi də bu sahədə ciddi dəyişikliklərin olacağından xəbər verir: "Fərid Osmanov da sektorda tanınan bir şəxsdir. 20 ildir ki bank sektorundadır. Toplantılardakı pozitiv çıxışları ilə yadımda qalıb. Amma sirr deyil ki, ən konservativ, mühafizəkar sahələrdən biri də bank sektorudur. Əgər yeni sədr innovasiya və startap ekosistemə də konservativ yanaşmalar sərgiləsə, sürətli inkişaf gözləmək sadəlövhlük olardı. Hansı ki, region ölkələrinin xeyli irəli getdikləri indiki zamanda Azərbaycan üçün sürətli inkişaf olduqca zəruridir. Ümid edirəm yeni təyinat uğurlu olacaq. Yeni sədr üçün start vəziyyəti əvvəlkilərdən daha münbitdir - ən azı qurumun vəsaitindən istifadə qaydalarını Prezident təsdiqləyib, müəyyən mexanizmlər hazırlanıb. Qalır hökumət İRİA-ya bu vəsaitləri versin və maraqlı tərəflər cəlb edilməklə işlərə başlanılsın".

O.Gündüzün sözlərinə görə, Rəqəmsal İnkişaf Konsepsiyası son illərin ən çox müzakirə predmeti olan sənədlərindən biridir: "Prezidentin fərmanı ilə eyni zamanda Konsepsiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planı da təsdiqlənib. 4 ay vaxt verilən bu sənədin qəbulu üçün 4 il lazım olub. Xatırladıram ki, Prezidentin 21 aprel 2021-ci il tarixli fərmanı ilə Nazirlər Kabineti 4 ay müddətində bu sənədi hazırlayıb Prezidentə təqdim etməliydi. Bəzən müxtəlif maraq toqquşmaları səbəbindən bu sənədin təsdiqinin ləngiməsi, yenidən razılaşdırmalara qaytarılması ilə bağlı fikirlər də səslənib. Nəhayət 4 ildən sonra belə bir konseptual sənədin təsdiqi ölkədə rəqəmsal transformasiyanın sürətlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Düşünürəm ki, bu konseptual sənəd rəqəmsal transformasiya proseslərinin, rəqəmsal hökumət quruculuğunun daha sürətli inkişafına mane olan məqamların aradan qaldırılmasına kömək edəcək. Prezidentin bununla bağlı Fərmanında da bu proseslərin sürətləndirilməsinə təkan verəcək məqamlar var. Konsepsiyada nəzərdə tutulan tədbirlərin icrasına nəzarət və əlaqələndirmə Nazirlər Kabinetinə tapşırılıb. Nazirlər Kabineti rəqəmsal həllərin səmərəliliyini test rejimində qiymətləndirmək və elektron xidmətlərin məqsədəuyğunluğunu müəyyən etmək üçün təkliflər hazırlayıb təqdim edəcək. Konsepsiyada rəqəmsal inkişaf sahəsində əsas icraedici qurum kimi RİNN müəyyən edilib. Yəni dövlət qurumları tərəfindən rəqəmsal inkişaf layihələrinin həyata keçirilməsi üçün Nazirliyin rəyi məcburi olacaq. Nazirlik süni intellekt həllərinin tətbiqi və data əsaslı qərarların qəbul edilməsi istiqamətində dövlət qurumları ilə birgə çalışacaq".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Dünya SAKİT

# Ötən il Azərbaycan iqtisadiyyatına 21.4 mlrd. manat investisiya yönəldilib



**2024-cü ildə Azərbaycanda əsas kapitala 21 milyard 435,1 milyon manat məbləğində, yaxud 2023-cü illə müqayisədə 0,7 faiz az investisiya yönəldilib.**

Bu barədə APA Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.

Qeyd edilib ki, neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 10,2 faiz azalmış, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 3,3 faiz artıb. İstifadə olunmuş investisiyanın 10641,3 milyon manatı və ya 49,6 faizi məhsul istehsalı sahələrinə, 8221,1 milyon manatı (38,4 faizi) xidmət sahələrinə, 2572,7 milyon manatı (12,0 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 18145,7 milyon manatını və ya 84,7 faizini daxili investisiyalar təşkil edib. Əsas kapitala yönəldilmiş investisiyaların 15524,9 milyon manatı və ya 72,4 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

## Hava ilə bağlı xəbərdarlıq - qar yağacaq



**Hava şəraiti ilə bağlı xəbərdarlıq edilib.**

Milli Hidrometeorologiya Xidmətindən Musavat.com-a verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında yanvarın 18-i axşamdan 19-u səhərədək hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Yağıntının yarımadanın ayrı-ayrı yerlərində qısa müddətə intensivləşəcəyi ehtimal olunur.

Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq yanvarın 18-i axşamdan 20-si gündüzədək hava şəraitinin arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının intensivləşəcəyi ehtimalı var. 19-u gündüz yağıntıda qısa müddətə fasilə olacaq.

Yeni Müsavat
N 10 (8620) 18 yanvar 2025

**Goranboyda 10-cu sinif şagirdi evlənmək məqsədi ilə qaçırılıb. Şəhər 1 saylı tam orta məktəbin 10-cu sinif şagirdi, 2007-ci il təvəllüdlü Diləfruz Məmmədova (şərti ad) rayonun Səfikürd kənd sakini olan 21 yaşlı sevdiyi oğlan tərəfindən evlənmək məqsədilə qaçırılıb. Faktla bağlı Goranboy rayon İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya və rayon Polis Şöbəsində araşdırma başlanıb.**



# “Xoş niyyətli” adam oğurluqları, azyaşlı “gəlinlər” - cəzalar sərtləşdi, nəticə isə...

## Novella Cəfəroğlu: “Qızı qaçırılan valideynlər mütləq şəkildə polisə müraciət etməlidir, çünki bu hal adam oğurluğudur”

Son məlumata görə, evlənmək məqsədilə qaçırılan 10-cu sinif şagirdi ata evinə qaytarılıb. Bu barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən məlumat verilib. Bildirilib ki, Goranboy Uşaq və Ailələrə Dəstək Mərkəzi, Goranboy Rayon İcra Hakimiyyəti, Goranboy polis şöbəsinin nümayəndələri hər iki ailənin yaşadığı ünvana yollanıblar. Oğlan və qız polis şöbəsinə aparılıb, izahatları alınıb. Hər iki ailəyə qanunvericiliklə bağlı məlumat verilib.

Azərbaycanda evlənmək məqsədilə qız qaçırma halları mütəmadi baş verir. Daxili İşlər Nazirliyi (DİN) bildirib ki, qız qaçırma adam oğurluğudur, hansısa istisna yoxdur. Yəni kimsə nikaha məcbur edilə bilməz, bu, qadağandır, məsuliyyət yaradır.

Konkret halda isə söhbət həm də qanunla nikah yaşına (18) çatmamış məktəblinin qaçırılmasından gedir.

Dövlət Statistika Komitəsindən saytımıza verilən məlumata görə, 2020-ci ildə 21 nəfər, 2021-ci ildə 43 nəfər, 2022-ci ildə isə 57 nəfər adam oğurluğu faktına görə məhkum olunub. 2023-cü ildə 31 adam oğurluğu hadisəsi törədilib ki, bunun da 17-si qız qaçırma olub. Ötən ilin statistikası hələlik açıqlanmayıb.

Cinayət Məcəlləsinə əsasən, adam oğurluğu beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Həmin əməllər yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə və ya ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda-on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 152.1-ci maddəsinə əsasən, on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə - üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Yəni qız oğlanla könüllü getmiş, lakin qızın 16 yaşı tamam olmamışdırsa, bu zaman da qızı könüllü qaçıran şəxsi cinayət məsuliyyəti gözləyir.

Bəs cəzalar kifayət qədər sərt olsa da, nikah yaşı ilə bağlı 1 illik güzəşt (17 yaş) ləğv edilsə də, bu qəbil faktlar niyə azalmır? Səbəb evdə və məktəbdə maarifləndirmənin zəif olmasıdırmı? Daha hansı preventiv tədbirlərə ehtiyac var?

Ekspertlərin fikrincə, qız qaçırma hallarının davam etməsinin əsas səbəbi ailələrdə və cəmiyyətdə maarifləndirmə səviyyəsinin aşağı olmasıdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələri də bildirir ki, bir çox hallarda valideynlər özləri də erkən nikahın fəsadları haqqında yetərli məlumata malik deyillər. Məktəblərdə isə bu mövzuda xüsusi tədris proqramlarının olmaması uşaqları təhlükəyə daha çox açıq vəziyyətdə qoyur.

Sosioloqların fikrincə, mentalitetdə hələ də “qız qaçırma”nın romantik və ya normal bir hadisə kimi qəbul edilməsi ciddi problemlərə yol açır. Bir çox icmalarda bu hallar ailə və cəmiyyət tərəfindən sükutla qarşılanır.

Nə etməli?

Mütəxəssislər problemi həll etmək üçün aşağıdakı tədbirləri təklif edir:

1. Maarifləndirmə kampaniyaları: Məktəblərdə və icmalarda uşaqların və valideynlərin hüquqları, erkən nikahın fəsadları barədə geniş maarifləndirici proqramlar təşkil olunmalıdır.

2. Psixoloji dəstək mərkəzləri: Həm azyaşlılar, həm də ailələr üçün hüquqi və psixoloji dəstək xidməti gücləndirilməlidir.

3. Hüquq-mühafizə orqanlarının fəaliyyəti: Polis və yerli icra strukturları bu cür halların qarşısını almaq üçün daha effektiv işləməlidir.

4. Mentalitetin dəyişdirilməsi: Media vasitəsilə qız qaçırma hallarının neqativ təsiri vurğulanmalı, bu cür halların “xoş niyyətli” olmadığı göstərilməlidir.

Beləliklə, hər nə qədər cəzalar sərtləşdirilsə də, problemin həlli yalnız qanunvericiliklə mümkün deyil. Cəmiyyətin şüurunda köklü dəyişikliklər edilməli, ailələrdə və məktəblərdə düzgün maarifləndirmə aparılmalıdır. Əks təqdirdə, bu problem həll olunmamış qalacaq.

Hüquq müdafiəçisi Novella Cəfəroğlu mövzu ilə bağlı “Yeni Müsavat”a açıqlamasında bildirib ki, son illərdə qız qaçırma və erkən nikahla bağlı faktların sayında azalmalar müşahidə olunur:

“Bu cür halların xeyli qarşısı alınıb. Qeyri-hökumət təşkilatları və cəmiyyətin məsələyə aktiv müdaxiləsi, eləcə də qanunların sərtləşdirilməsi nəticəsində ciddi azalmalar var. Apardığımız monitorinqlər bunu təsdiqləyir. Erkən nikahlarla bağlı icra hakimiyyətlərindəki xüsusi qurumlara, polislərə, hətta mollalara belə göstəriş verilib ki, yetkinlik yaşına çatmamış şəxslərə dini nikah kəsilməsin.

Ancaq problemi tamamilə həll etmək üçün məktəblərdə şagirdlərlə, həmçinin qız və oğlan anaları ilə maarifləndirmə söhbətləri aparılmalıdır. Uşaqlar evdə əsasən analarını müşahidə edir və onların tərbiyəsini alırlar. Valideynlərə izah edilməlidir ki, qız uşaqlarına təhsil vermək, onları peşə sahibi etmək vacibdir. Çünki həyat yoldaşı itki və ya boşanma səbəbilə ailəni tərk etdikdə, qadının əlində peşəsi olmalı, uşaqlarına baxıb onları böyüdə bilməlidir.

Hazırda zorla qız qaçırma halları ya yoxdur, ya da çox nadir rast gəlinir. Lakin belə hadisələr baş verdikdə, mütləq şəkildə valideynlər hüquq-mühafizə orqanlarına müraciət etməlidirlər. Çünki bu, adam oğurluğudur. Təəssüf ki, bəzən qızın valideynləri qarşı tərəflə razılığa gəlir, oğlan isə cəzadan yayına bilir. Halbuki bu hallarda mütləq şəkildə şikayət edilməli, belə şəxslər cəzalandırılmalıdır ki, digərləri bu hərəkəti təkrarlamasın.

Televiziyalar isə ucuz şou proqramları yayımlamaq əvəzinə, ailə dəyərlərini təbliğ etməli, erkən nikah və qız qaçırmanın fəsadları, hüquqi məsuliyyəti barədə maarifləndirici proqramlar hazırlamalıdır. Bu, cəmiyyətin məlumatlılığını artırmaq və problemin həllinə töhfə vermək baxımından çox vacibdir".

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# Stomatoloji kabinetlərdə diş çəkilməsi qadağan edilib? - rəsmi cavab



**Sosial şəbəkə və mətbuatda yayılan iddialara görə, stomatoloji kabinetlərdə diş çəkilməsi qadağan edilib. İddialara görə, diş çəkilməsi ancaq cərrahiyyə otağı olan tibb mərkəzlərində mümkündür.**

Məsələ ilə bağlı Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən Modern.az-ın sorğusuna cavab olaraq bildirilib ki, Nazirlər Kabinetinin 15 may 2017-ci il tarixli Qərarı ilə təsdiq olunmuş “Özəl tibb fəaliyyəti üzrə lisenziyalaşdırılan xidmətlərin və işlərin Siyahısı”nda “stomatoloji” iş üzrə tibbi xidmətlin göstərilməsi sanitariya-gigiyena tələblərinə riayət olunmaqla tibbin bir sahəsi olaraq, tibbi praktiki fəaliyyət zamanı diş problemləri, onların müayinə, müalicə, korreksiya və profilaktikasına yönəlmiş, ağız boşluğundakı dişlərə müdaxilə ilə müşayiət olunan müxtəlif kompleks prosedurları (bir sıra əməliyyatları) nəzərdə tutur.

“Özəl tibb fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, qanunvericiliklə müəyyən olunmuş qaydada hüquqi şəxs yaratmaqla özəl tibb fəaliyyəti, həmçinin, ali tibb təhsili olan (ixtisasca həkim-stomatoloq) şəxslər tərəfindən hüquqi şəxs yaratmadan fiziki şəxs olaraq qanunvericiliklə müəyyən olunmuş qaydada özəl tibbi praktika üzrə fəaliyyət həyata keçirilə bilər. Stomatoloji ixtisas üzrə terapevtik stomatoloji, ortopedik stomatoloji, ortodontik stomatoloji, cərrahi stomatoloji və diş texniki üzrə lisenziya tələb olunduğundan, uyğun işlər üzrə tibbi praktiki fəaliyyət dövlət sertifikasiya şəhadətnaməsi və lisenziya əsasında həyata keçirilə bilər. Cərrahi stomatoloji iş üzrə lisenziya icazəsi olmayan şəxslər dişlərin çəkilməsi, ağız boşluğuna uyğun implantların yeridilməsi kimi əməliyyatları icra edə bilməz.

Yalnız vətəndaş şikayətləri və yerli dövlət orqanları tərəfindən daxil olan müraciətlər əsasında aidiyyəti özəl tibb müəssisələrində qanunvericiliklə müəyyən olunmuş qaydada xidməti yoxlamalar keçirilir. Keçirilən yoxlamalar zamanı sahibkar subyektlərində aşkar edilən qanunsuz tibbi praktiki fəaliyyət ilə məşğul olma faktı inzibati xəta məcəlləsinin müvafiq maddələri ilə inzibati qaydada tənbeh olunur. Aidiyyəti üzrə məsələdə lisenziya tələblərinə dair qaydalarda ciddi dəyişiklər olmayıb. Belə ki, cərrahi stomatoloji iş üzrə lisenziya icazəsi olmayan şəxslər (hüquqi və fiziki şəxslər) dişlərin çəkilməsi, ağız boşluğuna uyğun implantların yeridilməsi kimi əməliyyatları icra etməsi mümkün deyil. Əks halda müvafiq icra hakimiyyəti orqanı tərəfindən inzibati qaydada məsuliyyətə cəlb oluna bilərlər.

Xüsusilə vurğulamaq istərdik ki, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin fərmanına müvafiq olaraq nəzarət tədbirlərinin həyata keçirilməsində müəyyən məhdudiyyətlərin olması sahibkarlıq subyektlərinin məsuliyyətdən yayınma hallarına rast gəlinməsi faktları olsa da, qanunun tətbiqi zamanı müvafiq bəndində “İnsanların həyat və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa və mühüm təhlükənin olması və ya mühüm zərərin vurulması barədə hüquqi və fiziki şəxslərdən, dövlət və yerli özünüidarəetmə orqanlarından yoxlayıcı orqana konkret faktlara əsaslanan rəsmi müraciətlər (məlumatlar) daxil olduqda, habelə kütləvi informasiya vasitələrində məlumatlar yayıldıqda xidməti yoxlamaların keçirilməsi, uyğun olaraq da nəzarət tədbirlərinin həyata keçirilməsi sahibkar subyektlərinin məsuliyyətinin daha da artması və əhaliyə keyfiyyətli tibbi xidmətin göstərilməsi üçün əsasdır.

Vətəndaşlara bir daha xatırladırıq ki, özəl tibb müəssisələrində və aptek təşkilatlarında üzləşdikləri hər hansı problemlə bağlı AEM-in “bir pəncərə” sistemi, “qaynar xətt”i (012 596 05 20), aem@pharma.az elektron ünvanı və ya pharma.az saytının MÜRACİƏT bölməsi vasitəsi ilə bizə müraciət edə bilərlər. Bu halda araşdırılma aparılır və lazım gələrsə, plandankənar yoxlama aparılması barədə qərar qəbul edilir".

YENİ MÜSAVAT

Son səhifə

N 10 (8620) 18 yanvar 2025

Yanvar

# Üzüm şirəsinin kişilər üçün əvəzolunmaz faydası



**Üzüm şirəsinin müntəzəm qəbulu kişilərdə impotensiya riskini 83% azaldır. Saglam.az xəbər verir ki, bu barədə çinli alimlərın apardıqları geniş tədqiqatlardan sonra məlum olub.**

Bildirilir ki, təcrübədə 600 kişi könüllü iştirak edib.

Tədqiqatçılar müəyyən etdilər ki, həftədə beş və ya daha çox dəfə üzüm şirəsi içən kişilərdə erektil disfunksiya riski, heç vaxt belə şirə içməyən iştirakçılarla müqayisədə 79% daha aşağı olub. 40 yaşdan yuxarı yaş qrupunda isə daha yaxşı nəticə (83%) müşahidə edilib.

Qeyd olunur ki, qırmızı üzüm şirəsi ereksiyanı yaxşılaşdırmaqdan əlavə, ürək-damar sisteminin sağlamlığına da müsbət təsir göstərir. O, ürək əzələsini möhkəmləndirir, "pis" xolesterinin səviyyəsini azaldır və damarların elastikliyini qoruyur.

Alimlər bu effekti üzüm şirəsində, xüsusilə qırmızı üzüm sortlarında güclü antioksidant xüsusiyyətlərinə malik fenol birləşmələrinin yüksək tərkibi ilə izah edirlər. Bu maddələr qan damarları toxumalarının sağlamlaşmasına, bağırsaq mikroflorasının normallaşmasına və xolesterinin azalmasına kömək edir.

Bununla belə, həkimlər xəbərdarlıq edirlər ki, piylənmə və diabet, mədə xorası, kolit, qıcqırma ilə müşayiət olunan bağırsaq pozğunluqları və bir sıra digər xəstəliklərdən əziyyət çəkən insanlar bu məhsuldan çəkinməlidirlər.



## Kişi "dirildi" və öz dəfn mərasimini pozdu

**Hindistanda Karnataka ştatından olan yaşlı kişi öz dəfn mərasimindən bir neçə saat əvvəl gözlənilmədən "dirilib". Bu barədə "News9Live" nəşri yazıb. 67 yaşlı Pavitran insult keçirdikdən sonra ağır vəziyyətdə xəstəxanada yatıb, daha sonra isə həkimlər onun nəfəs almadığını və öldüyünü elan ediblər. Kişi beş saat ərzində dəfn olunmaq üçün doğma şəhərinə aparıldığı zaman heç bir həyat əlaməti göstərməyib. Bu müddətdə yerli qəzetdə onun ölümü ilə bağlı qeyd çıxıb. Lakin sonradan həkimlərdən biri Pavitranın əlini güclə tərpətdiyini görüb, sonra kişi nəfəs almağa başlayıb və özünə gəlib. Məlum olub ki, kişi xəstəxanada huşunu itirib, tibb işçiləri isə onun öldüyünü zənn ediblər.**



## Avropanın ən təhlükəsiz avtomobilləri açıqlandı

**"EuroNCAP" 2024-cü il üçün avtomobillərin müxtəlif siniflər üzrə ən təhlükəsiz modellərini açıqlayıb. Reytinqdəki əksər avtomobillər Avropa modelləri olsa da, Yapon və Çin istehsalı olan krossoverlər də daxil edilib. Bunlardan "Mazda CX-80" və "Zeekr X" xüsusilə diqqət çəkib. "Zeekr X" eyni anda iki kateqoriyada - ən təhlükəsiz kompakt krossover və elektromobil olaraq qiymətləndirilib. Göstəricilərinə görə, o elektrikli "Porsche Macan", "Volvo EX30" və "Toyota C-HR"i geridə qoyub. Çinin beşqapılı krossoveri olan "Zeekr X" böyüklər və azyaşlı sərnişinləri 91% və 90% qoruyur. Elektron sistemlərinin işi 83%, piyadalara qayğı isə 84% səviyyəsində qiymətləndirilib.**

Avropa bazarı üçün xüsusi olaraq hazırlanmış "Mazda CX-80" isə ən təhlükəsiz iri yolsuzluq avtomobili seçilib. Böyük ailə avtomobilləri arasında isə "Mercedes-Benz E-Class" lider olub.

# Nadir və təhlükəli xəstəliyin əlamətləri



**Şəkərsiz diabet - böyrəklərdə suyun sorulması və sidik konsentrasiyasının pozulması ilə özünü göstərən xəstəliklər qrupudur. Bu xəstəlik güclü susuzluqla müşayiət olunur və bu zaman insan gündə 3-20 litr su içə bilər. Bu barədə Avropa Tibb Mərkəzinin (EMC) endokrinoloqu, preventiv və anti-age təbabət mütəxəssisi Kamilə Tabeyeva danışıb.**

O, gündüz və gecə vaxtı bol və tez-tez sidik ifrazı, dəri quruluğu və kifayət qədər maye çatışmazlığı fonunda zəifliyin də şəkərsiz diabetin əlamətləri arasında olduğunu vurğulayıb. "Xəstəlik tez-tez qəbizliklə müşayiət olunur. Şəkərsiz diabet, əsasən, artmış iş yükü səbəbindən böyrək funksiyasının azalması riski ilə təhlükəlidir. Susuzlaşma və qanın qatılaşması səbəbindən tromb əmələ gəlmə təhlükəsi də yaranır. Digər fəsadlara mədə-bağırsaq sisteminin işinin pozulması, zəiflik, əsəbilik və sinir sisteminin zədələnməsi də daxildir", - deyə həkim bildirib.

Şəkərsiz diabet irsiyyət problemləri fonunda gen mutasiyaları, hipofiz və hipotalamus sahəsində beyin törəmələri, kəllə-beyin travması, müxtəlif infeksion xəstəliklər və vazopressin hormonunun qəbul edilməməsi ilə əlaqəli böyrək xəstəlikləri səbəbindən inkişaf edə bilər.

"Bununla belə, şəkərsiz diabet nadir xəstəlikdir. Beyində, xüsusilə hipofiz və hipotalamusda vazopressin (antidiuretik hormon) ifraz olunur. Bu hormon orqanizmdə nə qədər suyun qalmalı və nə qədərinin orqanizmdən çıxmalı olduğunu tənzimləyir. Hormonun ifrazının və ya təsirinin pozulması nəticəsində şəkərsiz diabet inkişaf edir. Xəstəliyin pik dövrü 20-30 yaş arasına düşür", - deyə həkim əlavə edib.



## Rusiya ilk uçan avtomobilini nümayiş etdirdi

**Rusiya özünün ilk uçan avtomobilini nümayiş etdirib.**

Oxu.Az-ın məlumatına görə, bu barədə "No Limits" "Telegram" kanalı xəbər verib.

Qeyd edilir ki, Rusiyada ilk uçan avtomobilinin prototipi "İF-9" adı ilə Moskvanın "Filatov" Konstruktor Bürosu tərəfindən təqdim edilib. Model hazırda sınaqlara hazırlanır. Məlumata görə, təqdim edilən şəkillərdə avtomobilin 1:5 miqyasında maketi göstərilib. Avtomobilin ikiyerli olması nəzərdə tutulur. Qapılar əvəzinə kabinənin şəffaf açılan örtüyü var. Yığılmış vəziyyətdə pərlər mühərriklərlə birlikdə gövdənin yan tərəflərindəki xüsusi bölmələrdə gizlədilir və aviasiya transformasiyası zamanı açılır. Bundan əlavə, bildirilir ki, havada fövqəladə vəziyyət yarandığı təqdirdə, "İF-9"un kabinəsi pirotexniki patronlar vasitəsilə ayrılaraq, kapsula şəklində yuxarı atılır. Bu vəziyyətdə, sərnişinlər paraşütlə yerə enirlər.

## Bunları bilirsinizmi?

* Bədəninizin 30 dəqiqədə itirdiyi istiliklə iki litr suyu qaynada bilərsiniz.
* Hər bir ayağınızda təxminən bir trilyon bakteriya var.
* Ortalama bir yuxu 2-3 saniyə davam edər.
* Yeməyin ağzınızdan mədənizə çatması yeddi saniyə davam edir.
* Mədə turşunuz bir ülgücü əridə biləcək gücdədir.
* Bir cüt ayaqda 250 000 tər vəzisi var.
* Ayaq baş barmağınızda iki sümük olmasına qarşılıq digər dörd barmağınızda üç sümük var.
* Ortalama bir qadın ortalama bir adamdan 12,5 sm qısadır.
* Betxoven son əsərini kar halda bəstələyib
* Eyfel qülləsinin hazırlanmasında 6400 ton ağırlığında 18.100 ədəd dəmir parçasından istifadə edilib
* İnsan orqanizmindəki bütün damarların uzunluğu 15 min km-dir
* Bir futbolçu topa hər dəfə başı ilə vuranda, beynində min hüceyrə ölür
* İnsanın baçında orta hesabla 30.000-100.000 ədəd saç var. Hər gün onlardan 100-ü tökülür.
* Amerikalıların 60 faizi ölkələrini xəritədə tapa bilmir
* Dünyadakı kişilərin 10, qadınların isə 8 faizi solaxaydır.

## Bir neçə dəqiqəyə yuxuya getməyin 5 sirri



**Daha tez yatmaq üçün bir neçə qaydaya əməl etmək lazımdır. Bunlardan biri zəif işıq mənbələrindən istifadədir.**

Bu barədə rusiyalı nevroloq Yelena Kislova danışıb.

Onun sözlərinə görə, yuxu gigiyenası çərçivəsində yatmazdan iki-üç saat əvvəl parlaq işığın söndürülməsi və səs mənbələrinin azaldılması yuxunun keyfiyyətini yaxşılaşdırır.

"Oxumaq kimi yuxuya getməyə kömək edə biləcək sakit məşğuliyyətlərlə özünüzü rahatladın. Melatoninin təbii artımını və yuxunun başlamasını təşviq etmək üçün yatmazdan iki-üç saat əvvəl zəif işıq (ideal olaraq 15 Vt-dan az işıq) tövsiyə olunur", - deyə həkim izah edib.

Mütəxəssis adi yuxudan azı 30 dəqiqə əvvəl və gecə oyanmalarında elektronikadan istifadədən çəkinməyi məsləhət görüb.

"Kompüter ekranları və portativ cihazlardan yayılan mavi işıq melatoninin təbii istehsalını basdıraraq, yuxuya getmə çətinliklərinə səbəb ola bilər. Əgər yata bilmirsinizsə, saata baxmayın. Başqa otağa keçin və yenidən yuxuya gedə biləcək qədər yorğun hiss edənə qədər rahatladıcı bir şeylə məşğul olun. Əgər gecə yuxu probleminiz varsa, xüsusilə gec saatlarda yatmaqdan çəkinin. Lakin gecə işləyən insanlar üçün təxminən 20-30 dəqiqəlik qısa yuxu gündüz yorğunluğunu azaltmağa kömək edə bilər", - deyə həkim qeyd edib.

Yelena Kislova əlavə edib ki, həmçinin gündüz və ya axşam (yatmazdan əvvəl yox) müntəzəm fiziki məşqlər, düzgün qidalanma və zərərli vərdişlərdən uzaq sağlam həyat tərzi yaxşı yuxuya kömək edir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-cì məhəllə ev 44/d Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yenì Müsavat"ın kompüter mərkəzində yığılıb, səhìfələnìb, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bìlər.

Lìsenziya N: B 114

SAYI: 1.500